فلسفة الطاقة

# ENERJİ FƏLSƏFƏSİ



HƏQİQƏT
YOXSA
XƏYAL

Müəllif
Prof. Saleh Sindi

Tərcümə edən
Sahib Əsədov

# ENERJİ FƏLSƏFƏSİ

# HƏQİQƏT, YOXSA XƏYAL?

PROF. SALEH İBN ƏBDÜLƏZİZ SİNDİ

TƏRCÜMƏ: SAHİB ƏSƏDOV

# TƏRCÜMƏÇİNİN ÖN SÖZÜ

*Mərhəmətli və Rəhimli Allahın adı ilə.*

*Allahın elçisi Muhəmmədə, onun ailəsinə və səhabələrinə Allahın salavatı və salamı olsun.*

Hörmətli oxucu! Tərcümə etdiyimiz, haqqında danışılan "Enerji fəlsəfəsi"nin təbliğinin ölkəmizdə də sürətlə yayılmağa başlaması, bu mövzuya İslami mövqeyin ortaya qoyulmasını qaçılmaz etmişdir. Kitabçada bu fəlsəfi cərəyanda olan İslama zidd inanclara, fikirlərə və feillərə ayrı-ayrı toxunulmuşdur. Müəllif kitabçada bu təlimlərdən bəzilərini sadalayır, bu təlimlərdən **yoqa, fenşuy, riki, tsi konq (qigong), "tay şi" (tai chi), prana helinq** və s. növləri(1) qeyd edir.

Enerji fəlsəfəsinin insanı İslamdakı kimi deyil, guya başqa bir formada təmizləməsini iddia etməsilə yanaşı, diqqət çəkən məsələlərdən biri də yoqa ilə məşğul olanların məhz hindusların ibadət formalarını yerinə yetirmələridir. Çox qəribədir! Nə üçün məhz hinduizm dininə aid hərəkətlər edilir?!

Bu fəlsəfənin ölkəmizdə yayılmasının səbəblərindən biri də bu sahəni öyrənənlərin maddi gəlir əldə etmək üçün olan maraqlarıdır. Birmənalı şəkildə demək olar ki, bu təlimlərdən ölkəmizdə ən çox yayılmış olanı yoqa təlimidir. Birbaşa Azərbaycanda fəaliyyət göstərən bəzi enerji təlimçilərinin dilindən eşitdiyim bir neçə fikri təqdim etmək istəyirəm ki, oxucuda mövzu haqqında ilkin təsəvvür formalaşsın:

**1 –** "Ruhun Allahla birləşməsi", İslam terminologiyasında buna *"əl-ittihad"* deyilir ki, bu ifrat sufizm etiqadı bütpərəst

---

[1] Bu enerji təlim növlərinin mənaları haqqında təxminən kitabın ortalarında haşiyədə, qeydlər bölümündə bilgi verilmişdir.

inanclardan azmış təriqətlərə daxil olan inanc hesab edilir ki, İslamla bir əlaqəsi yoxdur.

**2 –** Allah qorxusunu inkar edib, Allahı yalnız "sevməyə" dəvət etmək. Qorxu ayələrinin mənasını qorxu olaraq yox, "utanmaq" kimi təqdim edirlər. Halbuki Allahdan qorxmayan insan ən təhlükəli insandır.

**3 –** Yoqa təlimləri bitdikdən sonra da onu həyat tərzinə çevirməyə dəvət. Halbuki, bir müsəlmanın həyat tərzi İslama uyğun olmalıdır, bütpərəst fəlsəfələrindən gələn həyat tərzi olmalı deyil.

**4 –** "Fenşuy"(2) fəlsəfəsinə dəvət edənlərin bahalı daş-qaşların xüsusi təsirinə inanmaları və bunu təbliğ etmələri ki, bu da İslam inancına ziddir.

*Bu kiçik müqəddimədə* "*yoqa*", "*fenşuy*" və digər enerji fəlsəfəçilərinin etiqadi cəhətdən batil fikirlərini sadalayaraq mövzunu uzatmaq niyyətim yoxdur.

Araşdırma zamanı Azərbaycan cəmiyyətində yoqanı ictimaiyyətə üç cür təqdim edilmə formasını müşahidə etdim:

- *Birinci qism* daha çox onu "idman" kimi təqdim edir.
- *İkinci qism* onun "inanc, din" tərəfinə üstünlük verir.
- *Üçüncü qism* isə onu "nə din, nə də idman" saymır.

Hər bir halda yoqa təlimçilərinin onu nə kimi təbliğ etmələrindən aslı olmayaraq, bir çox hallarda onun inanc tərəfinin gizlədilməsini müşahidə edə bilirik.

---

2 **Fenşuy:** (Fenq Şui: hava və külək) bu fəlsəfə təbiətdə olan enerjini, yaşadığımız ətrafda hərəkətə çevirmə texnologiyasının olduğunu iddia edən köhnə bir çin təlimidir. Bu təlim evdəki əşyaların düzülüşü, şəhər binalarının tikilişi, bahalı daş-qaşlardakı enerji ilə bağlı uğur və uğursuzluq inanclarını da təlqin edir. Daşların müxtəlif növləri də müxtəlif enerji növlərini təmsil edir.

Azərbaycanda ilk dəfə yoqanı tədris edənlərdən biri öz çıxışlarından birində yoqanın mənəvi tərəfi (inanclar) haqqında ciddi bir etiraf etmiş, onun fiziki tərəfini bilib, mənəvi (inanclar) tərəfini bilməyənlərin "yoq" ola bilməyəcəklərini bildirib(3). O bildirib ki, belələri yüksək səviyyədə yoqa təlimləri də keçə bilərlər, lakin onlar əsl mütəxəssis deyillər. Deməli, Şərqin bütpərəst fəlsəfələrindən qaynaqlanan bu fəlsəfənin mənəvi tərəflərini bilmək bu işin əhli üçün çox mühümdür. Lakin fiziki təlimlər keçməklə kifayətlənənlərin bir çoxu bu həqiqətləri bilmirlər. Müəllifin qeyd etdiyi kimi müəyyən bir mərhələyə çatan adamlara onlar həmin mənəvi (inanclar) qismini də öyrədirlər.

Möhtərəm oxucu! Müəllifin enerji fəlsəfəsi və təbliğatçıları haqqında bu kitabçasında qeyd etdiklərinin eynilə bizim cəmiyyətdə də mövcud olduğunun şahidi ola bilərsiniz.

Bu kitabça müsəlmanları maarifləndirmək üçün yazılmışdır. Enerji fəlsəfəsinin aldadıcı tərəfləri, bəşər övladının bəzi təcrübələrindən istifadə edib bəzən "faydalı" görünə biləcək vasitələrlə insanları özünə cəlb etməsi, fəlsəfi inanclar sistemi olaraq etiqadi cəhətdən böyük problemli məsələlərə qapı açması amillərini göz önünə alaraq bu mövzular diqqətlə araşdırılmalı, müəllifin kitabda qeyd etdiyi İslama zidd məsələlərin təhlükəsinə diqqət yetirilməlidir!

Diqqət çəkən məsələlərdən biri də odur ki, enerji fəlsəfəsinin təbliğatçıları onu sosial şəbəkələrdə çox bəzəkli və faydalı təqdim edirlər. Bu səbəbdən də bu fəlsəfənin həqiqətini və ondakı etiqadi problemləri bilməyənlər rahat bir şəkildə bu təlimçilərin tələsinə düşə bilərlər. Odur ki, oxuculara kitabçanı tam və diqqətlə oxumağı tövsiyə edirik.

Onu da qeyd edək ki, bu kitabça Azərbaycan dilində "Enerji fəlsəfəsi" mövzusunda rəddiyyə olaraq təqdim edilən ilk materialdır! Allah faydalı etsin!

---

[3] https://youtube.com/shorts/W_UiF_viIWI?si=1OZcjZbFU_tU9A52s

**Yazdı:** Beynəlxalq Mədinə İslam universitetinin doktorantura tələbəsi Sahib Əsədov. Tarix: Mədinə şəhəri. 15. 11. 2025.

MƏRHƏMƏTLİ VƏ RƏHİMLİ ALLAHIN ADI İLƏ

## MÜƏLLİFİN ÖN SÖZÜ

Öz dinini bütün dinlərdən üstün etmək üçün elçisini doğru yol və haqq din ilə göndərən Allaha həmd olsun! Şahid olaraq Allah kifayət edir. Onu təsdiqləyərək və (ibadətdə) təkləşdirərək şəhadət edirəm ki, Allahdan başqa ibadətə layiq haqq məbud yoxdur, O təkdir, heç bir şəriki yoxdur. Yenə şəhadət edirəm ki, Peyğəmbərimiz Allahın qulu və elçisidir. Ona, ailəsinə və səhabələrinə Allahın çoxlu salavatı və salamı olsun.

Bu risalənin başlığı, barəsində çoxlu müzakirələr aparılan, verilmiş bir sual haqqındadır: "Enerji fəlsəfəsi; həqiqət, yoxsa xəyal?"

Qarşıdakı sətirlərdə - Allahın yardımı və müvəffəqiyyətilə - dəlil və sübutlardan yararlanaraq bu suala cavab verməyə çalışacağam.

Çünki mən aydın və müxtəsər cavablara meyilliyəm. Elə isə, başlanğıcda deyirəm: İslamın təməllərini bilən, ağıla hörmətlə yanaşan, hökm vermədə doğru elmi metoda tabe olan və nəfsinin istəyindən uzaq duran hər bir kəs etiraf etməlidir ki, "enerji fəlsəfəsi və onun tətbiqatları" yalnız yuxuda görünən bir xəyal kimidir. Əslində bu fəlsəfə qarışıq və gerçək olmayan yuxulardır!

Bu iddiama – Allahın iznilə - on araşdırma mövzusu ilə öz dəlil və sübutlarımı gətirəcəyəm. Müvəffəqiyyət və yardım Allahdandır[(4)]!

---

[4] Bu məqamda bunu vurğulamaq yerinə düşər: mən bu mövzunu bir

sıra az olmayan mənbələrdən – universitet dissertasiyalarından, xüsusi saytlardan və digər mənbələrdən, istər enerji fəlsəfəsinin təbliğatçılarının, istər də onları tənqid edənlərin qaynaqlarından – ətraflı mütaliəyə və mənbələrə qayıtmağa diqqət yetirərək bu elmi mövzunu topladım. Belə ki, bu yazının əsli Mədinə şəhərində yerləşən Quba məscidində hicri tarixlə 1444/5/27 baş tutan mühazirəmdir. Sonra bu kitabçanı çap etməyə niyyətləndim. Ola bilsin ki, uca Allah bunu faydalı etsin. İndi bu mühazirənin yazıya alınmasını yoxlamaqla kifayətləndim. O baxımdan ki, bu mövzuda geniş bir yazı istəməyən bir oxucu üçün müxtəsər bir fayda olar. Allahdan istəyirəm ki, bu yazıya yenidən nəzər yetirib öz əlavələrimi etməyi asanlaşdırsın. Hətta bu yazı daha əsaslı, təfsilatlı bir yazıya çevrilsin.

## BİRİNCİ MƏSƏLƏ:

## NƏ ÜÇÜN BU MÖVZUDAN DANIŞILIR?

"Enerji fəlsəfəsi", elmləri və tətbiqatları bu əsrin böyük fitnələrindən biridir. Bu mövzu bir çox insanlara bəzəkli görünmüşdür və onlar bu fitnəyə düşmüş, elə bilmişlər ki, qarşıda onların susuzluğunu aparacaq su var, bu isə yalnız uzaqdan görünən bir ilğımın parıltısıdır, orada içiləsi heç bir şey yoxdur!

Enerji fəlsəfəsinə elm libası geyindirilib, əslində isə bu fəlsəfə saxta bir elmdir!

Ona cəzbedici adlar da veriblər: "Əvəzləyici tibb", "şəxsiyyəti və bacarıqları inkişaf etdirmə", "bəşəri inkişaf" və s... Gerçək araşdırma nəticəsində isə aydın olur ki, bunların hamısı bütpərəst ayinləri və zəhərli fikirlərin (cəmiyyətə) ötürülməsi üçün geniş bir qapıdır!

Ağıl sahibi olan kimsə isə əhatəli bir şəkildə bilmədiyi bir mövzuda cavab verməyə tələsməz, eyni zamanda da iddiaya dəlil tələb edər.

Bu müəmmalı mövzunun parlaq başlıqlarının arxasında olan həqiqətləri qavramayan şəxslər üçün aydınlıq gətirməyə ehtiyacımız var.

Çünki, bu fəlsəfənin təbliğatında İslam əqidəsinə yad olan bir fikri etiqadın yayılmasına rəvac verilməsi halı var... Həqiqətən də bu, yeni bəzəklə təqdim olunan, əslində isə etiqadi, bütpərəst və fəlsəfi bir fikir müharibəsidir. Elə isə biz müsəlman toplumuna ehtiyatlı olmaq gərəkdir.

Biz bu mövzuya ona görə toxunmalıyıq ki, İslam dini tövhidlə (təkallahlıq inancı ilə) başlayır və bu məsələ dində ən mühüm məsələdir. Tövhidi qorumaq ən əzəmətli vacibatdır. Enerji fəlsəfəsi isə (insanların daxilində) tövhidin saflığının pozulmasına, hətta onun təməlinin pozulmasına apara biləcək bir fəlsəfədir.

Bu mövzudan danışmağa ehtiyacımız var, ona görə ki, qafil olan kimsə bütpərəst inancların ölmədiyini və bu inancların yeni maskalarda ortaya çıxdığını bilsin. Allahın elçisi ﷺ necə də doğru söyləmişdir: **"Sizdən öncəkilərin yollarına tabe olacaqsınız. Qarış-qarış, arşın-arşın...Hətta onlar kərtənkələ yuvasına girsələr belə, siz də onları izləyəcəksiniz**". – Biz dedik: Ey Allahın elçisi, yəhudi və xristianlarımı (izləyəcəyik)? Dedi: "Başqa kim olacaq ki?"[(5)]. (Buxari və Müslim).

Nə zaman tövhidi öyrənməyin təkrarı və tövhidin xatırlanmasından qafil qalırıqsa onu unuduruq, bu reallıqdan əmin olmağımız üçün bu mövzu haqqında danışmağa ehtiyacımız var. O zaman biz görərik ki, tövhidi naqisləşdirən hallar necə də sürətlə aramıza sızır. Elə bu mövzu da bu dediklərimizin əyani sübutudur.

---

5 Səhih əl-Buxari. "əl-Ənbiya" kitabı. 3456; Səhih Müslim. "Elm" kitabı. 2669. (Tərcüməçinin əlavəsi).

## İKİNCİ MƏSƏLƏ:

## BAŞLANĞIC ÜÇÜN MÜHÜM MÜQƏDDİMƏLƏR

**1 –** Ağıl hökm verir ki, yeni bir şeyi onun yeni olduğundan dolayı inkar etmək doğru deyil, bunun kimi də hansısa bir yeniliyi yeni olduğundan dolayı qəbul etmək də doğru deyil.

Ağıl sahiblərinə görə başlanğıc olaraq hansısa yeni bir fikrə qarşı o fikrin yeniliyindən dolayı stresə qapılmaq və ya o fikri inkar etmək doğru olmadığı kimi, eyni zamanda hansısa yeni bir fikri sağlam elmi bir əsası olmadan qəbul etmək də doğru deyil.

O zaman buradakı doğru qayda budur: yeni olduğu üçün yeniliyin inkarı nəfsə tabe olmaqdır və bunun kimi də yeni olduğu üçün yeniliyin qəbulu nəfsə tabe olmaqdır. Vacib olan isə bizim meyillərimizə və nəfsimizin istəklərinə baxmayaraq, haqqı haqq olduğu üçün qəbul etmək, batili isə batil olduğu üçün inkar etməkdir. Uca Allah buyurmuşdur: "Ey iman gətirənlər! Allah üçün ədaləti qoruyan şahidlər olun!" (Nisa. 135).

**2 –** Bilinməsi lazımdır ki, hər bir elm libası geyindirilmiş şey elm deyildir. Mütləqdir ki, bunlar həqiqi bir elm olsun.

Beləcə sağlam elmlərlə saxta elmlərin fərqləndirilməsi baş verir. Bu elmlər arasında fərq qoymamaq böyük bir problemdir!

Bu iki sinif elm arasında fərqləndirməni sağlam bir şəkildə

yerinə yetirmək üçün qayıdacağımız yer ixtisas əhlindən olan etibarlı şəxslərdir. Deməli, tibbin öz əhli var, fizikanın öz əhli, şəriət elminə aid fiqhin də öz əhli var.

**Doğruyla saxtakarlıq arasındakı sərhədlər itdiyi zaman azdırıcı yalanlar və xurafatlar ortalıqda gəzib dolaşır.**

**3 –** Bir şeyi bir və ya iki dəfə təcrübədən keçirib yaxşı bir nəticə əldə etmək həmin şeyin doğruluğuna qəti bir dəlil deyil. Ola bilər ki, az bir miqdar uyğunluq olsun, yaxud da ola bilsin ki, nəticə bilinməyən başqa bir səbəblə bağlı olsun.

Həqiqətən də hansısa bir məşğuliyyətin doğruluğunun bilinən elmi yolları vardır. Bu yol ya sadiq və təsdiqlənmiş peyğəmbərimiz ﷺ tərəfindən verilən qeybi bir xəbərlə və ya təcrübə əhlindən olan kəslərin gerçəkləşmiş hissi təcrübələr yoluyla bilinir. Müsbət nəticələr mötəbər elmi isbat yollarına əsasən təyin olunur. Lakin: "yoxladım və faydasını gördüm, filankəs yoxladı faydasını gördü" – kimi sözlərə əsaslanmaq üzərinə söykənə biləcəyimiz elmi arqument deyildir.

**4 –** Bu risalədə olan söhbətimiz – adları fərqli olsa da – yalnız "Enerji fəlsəfəsi", onun tətbiqatları və növləri haqqındadır. Bura şəfa kursları, enerji ilə müalicə, riki[(6)] müalicəsi, cazibə qanunu, "asi ağlını tərk et" mövzusu və s. enerji və bu məfhumlarla bağlı olan digər məsələlər daxildir. Hansı ki, çox zaman bu iki istiqamətə nisbət edilənlər

6 **Riki**: Bu kəlmədə "Ri" hissəciyi "ilahi hikmət", "ali qüvvə" və ya "müəmmalı hava" mənalarında işlənir. "Ki" isə "həyat enerjisi" anlamındadır. Bu bir yapon müalicə üslubu olub bədən, ruh və ağıl arasında müvazinəti müəyyən yollarla əldə etməyi hədəfləmək üçün nəzərdə tutulmuşdur (tərcüməçinin qeydi).

saxtakarlıqla məşğul olurlar. Bu iki istiqamət isə: şəxsi inkişaf və əvəzləyici tibb sahələridir.

Lakin bu iki istiqamətə aid olmayan kursları qəsd etmirik; o kurslar ki, vaxtın idarəsi və ya planlanması və ya natiqlik və s. sahələrlə bağlıdır. O sahələr ki, enerji bulanıqlığı mövzusundan uzaqdır, bizim bu məqamda danışdığımız mövzu ilə əlaqəsi yoxdur. Qarışıqlıq yaranmasın deyə bunu qeyd etdim.

## ÜÇÜNCÜ MƏSƏLƏ:

## ENERJİ FƏLSƏFƏSİ NƏDİR VƏ HANSI SAHƏLƏRİ ƏHATƏ EDİR?

Bu fəlsəfə bütpərəst fəlsəfələrdən götürülmüş bir qrup inanc və ayinlər toplusudur. Təməli "hülul"(7) və "vəhdətül-vücud"(8) və "insanı ilahiləşdirmək" inancına söykənir və insanda "enerji müvazinəti" yaratmağa çalışması və yaradılış ruhu ilə birgə olma yaxud da "mütləq" adlandırdıqları anlayışı iddia edir. Bu fəlsəfənin müxtəlif tətbiqatları var, hansı ki, şəfa istəmək (sağalmaq tələbi) və səadəti özünə cəlb etmə və ya arzuları cəzb etmə və s. məsələlərlə bağlıdır. Bu fəlsəfənin məzmununa bir qrup qanun və məşğuliyyətlər daxildir. Bunlara riki (reiki), cazibə qanunu, çakra fəlsəfəsi, yoqa və karma və s. daxildir, qarşıda bunlara işarə ediləcəkdir.

Qeyd etdiyim kimi, bu fəlsəfələr Şərq qaynaqlı olub Çinə, Hindistana aiddir, sonra isə Qərb dünyasında ifrat maddiyyatçılıq və ruhi quruluq (ruhi çatışmazlıq və ya

---

7 **Hülul:** Lüğəvi mənasıyla ("nüzul", yəni "enmək" sözüylə) əlaqədar olub bəzi dinlərdə və ifrat sufilikdə "Allahın zatının yer üzünə enməsi və hansısa bir məxluqda yerləşməsi" anlamını verir. Bu inanc sağlam İslam etiqadı baxımından çox təhlükəlidir. (Tərcüməçinin qeydi).

8 **Vəhdətül-vücud**: Bu termin fəlsəfi bir təlimlə əlaqədar olub "dünyanın və Allahın aralarında ayrılıq olmayan eyni həqiqət olduğunu, Allahın haqq varlıq olduğunu, dünyanın isə onun təcəllisi olduğunu, bütün məxluqların onun cövhərində birləşdiyini, Yaradanın varlığının yaradılmışların varlığı anlamına gəldiyini" və s. bu kimi İslamın təməlinə zidd fikirləri ehtiva edir. (Tərcüməçinin qeydi).

boşluq) nəticəsində yayılaraq özünə münbit yer tapmışdır. Onlar bu maddiyyatçılıq və ruhi boşluğun təzyiqi altında inildəyir, hücumuna məruz qalırdılar. Ümid edilirdi ki, bu maddiyyatçılıq onların səhraya dönmüş susuz qəlbinə yağış yağdırar, reallıq isə budur ki, bu maddiyyatçılıq onların yalnız sərgərdanlığını artırdı!

Sonra bu saxta elmlər İslam aləminə sızaraq yayıldı. Bu ölkələrdə də bir çox gənc oğlan və qızlar bu saxta elmlərə yönəldilər. Baxmayaraq ki, biz – Allaha həmd olsun ki – bu elmlərdən uzağıq, öz əqidəmiz və şəriətimizlə kifayətlənmişik. Lakin, hiylə böyükdür, yeniliyin öz "ləzzəti" var, (kor-koranə) təqlidçilik və maraq öz etdiyini edir! Görün indi bu kimi şeylər – bəşəri inkişaf, şəxsi inkişaf, səadəti gerçəkləşdirmək, şəfa tapmaq, varlanmağı cəlb etmək kimi – diqqətləri çəkən parlaq çağrışlarla olanda necə təsir edir?! Üstəlik də onlara diplomlar verilir və orada öz cazibəsi olan "etibarlı təlimçi" ləqəbinə nail olurlar.

## DÖRDÜNCÜ MƏSƏLƏ:

## ENERJİ FƏLSƏFƏSİ İLƏ MƏŞĞUL OLANLARIN TƏBLİĞAT VASİTƏLƏRİ NƏLƏRDİR?

Bu fəlsəfəni öyrənənlər fikirlərini təbliğ etmək üçün əksər hallarda beş vasitədən istifadə edirlər:
1 – Kurslar təşkil etmək,
2 – Kitablar yazmaq,
3 – Mühazirələr vermək,
4 – Məsləhətlər vermək,
5 – Sosial şəbəkələrdə yaymaq.

Metodları isə yersiz bir şəkildə elmi terminlərin istifadə edilməsi, elmi təcrübələrin saxtalaşdırılması və ən kiçik bir yaxınlığın (tam olmayan əlaqənin) üzərindən fikirləri əsaslandırılması üzərində qurulub. Habelə onlar tədricən hərəkət etmək metodundan da istifadə edirlər. O baxımdan ki, ilk öncə fikirlərinin hamısını izah etmirlər. Yaxud da ilkin kurslarında bunu etmirlər. Çox zaman ilk başlanğıclarda qeyd etdikləri məsələlərdə elə də çox problemlər görünmür, yalnız çirkin həqiqətlər daha yuxarı dərəcəli kurslarda – öyrənən şəxsə etibar etdikləri zaman – ortaya çıxır.

Bu yoldan tövbə edib onların müəmmalarından, üslub və oyunlarından ayılıb gördükləri və eşitdiklərinin pərdəsini qaldıranların xəbərlərində ibrət var.

## BEŞİNCİ MƏSƏLƏ:

## ENERJİ FƏLSƏFƏSİNDƏ ŞƏRİƏTƏ MÜXALİF OLAN ŞEYLƏR NƏLƏRDİR?

Bu məsələ mövzumuzun əsası və xəbərdarlıq harayımızın əsas səbəbidir. Əgər bu "enerji" elmlərində müsəlmanın əqidəsinə toxunan müxalif inanclar olmasaydı, bizim bu haqda danışmağımıza ehtiyac qalmazdı.

Amma mövzuya girmədən öncə iki məsələyə toxunmaq istərdim:

**Birincisi:** Allahın yardımı ilə qeyd edəcəyim bəzi etiqadi təhlükələr sənə daha aydın bir şəkildə göstərəcək ki, əgər sən bu elmlərin təməlləri və kökləri haqqında araşdırsan – hansı ki bunlar Şərq dinlərindən gəlir və ya Qərb bu fikirləri onlardan götürüb – bunun kimi də əgər sən qərbli enerji fəlsəfəsi təbliğatçılarının öz kurslarında, kitablarında, mühazirələrində irəli sürdüyü fikirlərə baxıb nəzər yetirsən, onların daha aydın və daha aşkar bu haqda danışdığını görə bilərsən. Müsəlman ölkələrində bu fikirləri yayanlar isə bunun əksini edir, onlar bir növ gizli yollara əl atır, bu elmlərdə olan hər bir şeyi insanlara açıq-aydın və aşkar bir şəkildə demirlər. Ola bilsin ki, onlar bu fəlsəfələrinə Allahı zikr etməyin bəzi növlərini də daxil etsinlər və ya (öz əməllərini) süni bir şəkildə şəriət məfhumu ilə bağlı göstərməyə çalışsınlar. Bu isə nəyisə irəli və ya geriyə aparmır. Elə isə həqiqətin günəşini nazik bir örtüyün arxasında gizlətmək mümkün deyil. Məhəmməd ﷺ peyğəmbərin dini və bu əsrin illuziyaları bir arada cəm olmayan iki bir-birinə zidd şeylərdir!

**İkincisi:** buradakı məqam – bununla məşğul olanların və bunda olanları öyrənənlərin niyyətinə baxmayaraq – bu fəlsəfə toplusunun mövcud tətbiqatlarında olan xətaları göstərmək məqamıdır. Ola bilsin ki, onlardan aldanmışlar və ya həqiqəti bilməyənlər var.

Bundan sonra deyirəm: enerji fəlsəfəsində və onun tətbiqatlarında şəriətə müxalif olan şeylər çoxdur və bu şeylər təhlükəlidir. Onlardan bəzilərini sadalayacağam:

**1 – İnsanın ilahiləşdirilməsi**; Bəli, insanın ilahiləşdirilməsi! enerji fəlsəfəsinin daşıdığı ən böyük müxalif əməllərdən biri də insanın ilahiləşdirilməsini əsaslandırmadır. Onlar ya açıq bir ifadəylə, ya da dolayı yolla bunu edirlər. Bu fəlsəfənin qaynaqlandığı bütpərəst əqidələr insanın ilahinin bir hissəsi olması fikrinə söykənir. Ona görə də insan talelərə qarşı istədiyi kimi davrana bilir və bu taleləri istədiyi kimi formalaşdırmağa gücü çatır. Enerji fəlsəfəsi onlara görə – bütün tətbiqatları ilə birgə - insanın batini, qeybi halını bilmək və insanın daxilində olan gizli, qeyri-adi gücləri aktivləşdirmək üçün bir vəsilədir. Onların iddialarına görə insan özü özünün ağası və taleyini müəyyən edəndir.

Əgər sən onların keçdikləri kurslara və kitablara nəzər yetirsən, onların aydın bir şəkildə bəşəri zata (insana) təzim etdiklərini görəcəksən; onlar insan haqqında – orada istədiyi kimi davranan – kainatı yaradan (Xaliq) haqqında danışdıqları kimi danışırlar. Uca Rəbbimiz onların Ona atdıqları iftiralardan uca və uzaqdır.

Onların iddiasına görə sən öz nəfsini xoşbəxt və ya bədbəxt edirsən. Sən öz nəfsinə mane olur və ya əta edirsən, sən öz qədərini idrakının lələyi ilə yazırsan. Sənin

əzmkarlığının gücü aradan qalxa bilməz, daxildə olan asilik edən ağlın hər şeyə gücü yetəndir, sənə cavab verən və ehtiyaclarını ödəyən də o daxilindəki çılğın, asi ağıldır. Sənin daxilində olan bu nəhəngi oyatmağa çox adam lazım deyil!

• Bax gör onlardan biri nə deyir: "Sən heç bir sərhəddi olmayan mütləq qüdrət və hikmət sahibisən, sən sonsuz zəka sahibisən. Sənin daxili aləmində Allahın imkanları və gücü var".

• İkinci şəxs belə deyir: "Bizim daxilimizdə olan ilahın özümüz tərəfindən kəşf edilməsi vacibdir".

• Üçüncü şəxs belə deyir: "Ey xaricdə özünə Rəbb axtaran, sənin axtardığın o ilah sən özünsən".

• Dördüncü şəxs belə deyir: "Biz maskalı ilahlarıq".

• Beşinci şəxs belə deyir: "Sən kainatda real olaraq mövcud olan hər şeyi ortaya çıxaran sistemsən... Sənin heç bir şeyə ehtiyacın yoxdur. Əksinə, sən öz xüsusi istəyinlə nəsnələri düzəldənsən!... Sən kamilsən və hər bir var olana öz kamilliyindən vermək sənin vəzifəndir".

• Altıncısı isə belə deyir: Sənin öz rəbbindən uzaq olmağın sənin kədərinin səbəbidir... O zaman ki, sən sonda öz uca zatının rəbbin olduğunu bilmirsən, təbii ki sən kədərlənəcəksən. Çünki sən rəbbin yolunu itirdin, öz zatını itirdin!".

Əgər geniş bir imkan olsaydı, on, iyirmi və daha çox sözlərdən misallar çəkərdim. Allaha and olsun ki, bunlar məchul (naməlum) adamların sözləri deyil, bu sözlər onların

seçilmiş məşhur şəxsiyyətlərinin sözləridir.

Həqiqətən də əvvəli nütfə, sonu isə leş olan, qarnında sidik və nəcis daşıyan, zəif bir məxluqun öyünərək belə çirkin sözlər deməsi necə də iyrəncdir! O sözlər ki, pis şirki və ən böyük küfrü özündə ehtiva edir. Uca Allah necə də doğru demişdir: "Onlardan kimsə: "Mən ondan başqa bir məbudam" -deyərsə, ona cəhənnəmi qismət edərik. Biz zalımları belə cəzalandırırıq". (əl-Ənbiya. 29).

İslam əhlinə gəldikdə isə onlar belə deyirlər: "Ey Allahım, Sən bizim Rəbbimizsən, bizsə sənin qulunuq. Sənin haqqımızda olan hökmün gerçəkləşmişdir. Haqqımızda verdiyin qərar ədalətlidir. Biz öz nəfsimizə nə bir xeyir, nə də bir zərər verə bilərik. Fərman verməkdə bizim zərrə miqdarında da gücümüz yoxdur. Sənin yedirdiklərindən başqa hər kəs acdır. Sənin geyindirdiklərindən başqa hər kəs üryandır. Doğru yola yönəltdiklərindən başqa hər kəs azmışdır. Biz istəməsək belə sənin istədiyin baş verir, Sən istəməsən, bizim istədiyimiz baş vermir. Güc və qüvvət yalnız Sənə məxsusdur".

**2 – bu da birinci ilə əlaqəlidir**; bu iki məsələ bir-birinə qarışıqdır. Saxta enerji elmlərindən küfr inancları ortaya çıxır. O da **"hülul", "ittihad"(9) və "vəhdətül-vücud"**dur. Bu inanclar demək olar ki, bu iki məsələ arasında get-gəl edir, ikisinin zülmətləri arasında qarışırlar. Bu inancların mənası odur ki, uca Allah (guya) Özü yaxud Allahın bir hissəsi

---

9 **İttihad:** *lüğəvi* cəhətdən "təkləşmə" əslindən olub "iki şeyin birləşib bir şey olması" mənasını verir. *Terminoloji* mənası isə bu ifadəni işlədənlərə görə "Xaliqlə məxluqun (yaradanla yaradılmışın) bir-birinə qarışıb eyni şeyə çevrilməsi" anlamındadır. (Tərcüməçinin qeydi).

məxluqata dönüşür, yaxud da Yaradan (Xaliq) və yaradılmış (məxluq) bir-birinin daxilində ittihad edir (birləşir) beləcə eyni şey olurlar, (onlar demək istəyirlər ki) ümumiyyətlə, varlıq aləmində olan hər bir şeyin özü Allahdır. Uca Allah onların dediklərindən uca, pak və nöqsansızdır.

Bir müsəlmanın şəkk-şübhə etmədiyi həqiqət isə odur ki, uca Allah qullarından yüksəkdədir, onlardan ayrıdır. O böyükdür, uca olandır. Pak və nöqsansız olan Allah Özünü heç nəyin əhatə edə bilməyəcəyi qədər əzəmətlidir! Hər kim ki, buna müxalif olaraq Xaliqin məxluqla hülul etdiyini və ya məxluqda ittihad etdiyini deyərsə, o kimsə Quran və Sünnəni yalanlamış, ən çirkin və ən pis küfrə yol vermişdir!

Bu işarə etdiyim əqidə Şərq dinlərindən olan Taosizm, Hinduizm, Buddizm, Konfusizmə dayanan bir inancdır və şəkk yoxdur ki, bu inancın təməlləri "enerji" fəlsəfəsinə söykənir. Bu inancların hamısı – bütünlüklə - "ittihad", "vəhdətül-vücud", habelə, insanın zatının ilahiliyində və ya ilahiliyin bir qığılcımı olması fikri üzrə ittifaq ediblər.

***Enerji*** – bütün tətbiqatları və şəfa istəmə metodları ilə birgə riki, prana, tsi kon (konfusizm), tay tsi (tai chi), fenq şui (fenşuy) və s. – onların iddiasına görə vahid bir bütünlükdən qaynaqlanır, hansı ki, bütün varlıq ondan ərsəyə gəlir və ona qayıdır, onun qüvvəsi və təsiri var. Bunu sadəcə enerji də adlandıra bilərsən və ya canlılıq enerjisi, həyat enerjisi, məkan enerjisi, kainat enerjisi, ruhani enerjisi, yaxud həyat qüvvəsi, şəfa qüvvəsi, idrak qüvvəsi, mənlik qüvvəsi və ya bütöv varlıq da adlandıra bilərsən. Əslində isə bu onlarda ilahdır, məxluqlara qarışır və ya onlarla ittihad edir (birləşir), bu uydurmalarla məşğul olanlar onunla (iddia olunan ilahla) əlaqə qurmağa çalışırlar. Çünki, (onlara görə)

o əta edir və ya mane olur, sağaldır və xəstələndirir, xoşbəxt və bədbəxt edir. Habelə (guya) bunun vasitəsilə kainatın həqiqətlərini və qeybi məsələləri bilmək olur, bütün təbii xəstəlikləri müalicə etmək olur!

Onların təsəvvürünə görə bu enerjiyə çatmağın yolları var; bunlardan biri əlləri qaldırmaqdır! Elə bu səbəbdən də onları bəzi təlimlərində bu enerjinin bədənlərinə daxil olması üçün əllərini uzatdıqlarını görərsən.

**Bu metodlardan** biri də dərin nəfəs almaqdır; ona görə də onların "tənəffüs idmanı" adlandırdıqları məşğuliyyətə - bədən yollarında enerjinin qüvvətlə yayılması üçün – həris olduqlarını görərsən.

**Bu metodlardan** biri də düşüncə seanslarıdır; onlar gözləri qapayıb müəyyən kəlmələri təkrarlayaraq öz idraklarından çıxıb duyğularla, şüurla əlaqə qurmağa çalışır və bunu "ən yüksək idrak" adlandırırlar. Müsəlmanlara deyilən bu ibarənin həqiqətini gizlətsələr də, əslində bu ibarənin həqiqəti Xaliqlə (Yaradanla) ittihad(10) etmək (birləşmək) əqidəsidir.

**Xülasə:** bu tayfa iddia edir ki, bədəndəki enerji müvazinətini geri qaytarmaq üçün bu rituallarla məşğul olurlar. Bunun həqiqəti isə belədir: varlıqla birgə ahəngdarlıq içində olmaq, bundan sonra isə onunla ittihad etmək (birləşmək), bununla da insanın – öncə keçdiyi kimi – özünə və başqasına şəfa verməyə gücünün çatmasını formalaşdırmaq. Beləcə o, öz etdiyi və öz lehinə olan hər hadisəni idarə edə bilsin.

---

10 Öncəki haşiyələrdən birində "ittihad" sözünün İslama zidd olan mənası izah edildi. (Tərcüməçinin qeydi).

Bu fəlsəfədə kainatın enerjisindən yardım istəmək fikri yalnız uca Yaradanla birləşmək (ittihad etmək) formalarından biridir. O baxımdan ki, onlar ilahi zat ilə əlaqə qurmaq vasitəsilə kainat enerjisindən küllü miqdarda əldə etməyin mümkün olduğunu iddia edirlər!

*Başqa bir ibarə ilə desək:* enerji ilə əlaqə qurmaq mütləq olan ilə ittihada keçmək (birləşmək) anlamını verir, daha sonra isə ilahi mənşəyə qayıtmağı və insan nəfsinin ilahiləşməyə yüksəlməsini ifadə edir. Onların iddiasına görə insan unudulmuş bir ilahdır ki o, öz ilahi həqiqətindən ayrılmışdır. Əgər bu itirilmiş enerji geri qayıdarsa, insan öz həqiqətinə yaxınlaşar. Daha sonra isə o reallığı idarə edə bilər və gələcəyə baxa bilər.

Heç bir müsəlmana gizli deyil ki, bu əqidə küfr əqidəsidir. Hətta, bu əqidə yəhudi və xristianların, Əbu Cəhl və Əbu Ləhəbin əqidəsindən də betərdir.

**3 – Rübubiyyətdə və üluhiyyətdə böyük şirkə düşmək**; bu o kəslərə aiddir ki, o özünü və ya batini ağlını və ya təbiəti və ya enerjini yaratmaqda və idarə etməkdə Allaha tay tutur. Belə fikirlərə onların tətbiqatlarında və sözlərində çox rast gəlmək olar.

Əgər sən onların bəzi kitablarını səhifələsən və onların bəzi kurslarına nəzər yetirsən, çoxlu sayda "batini ağıl" terminini istifadə etdiklərini görərsən. Bu termin təhlükəli bir fəlsəfi termindir. Onlara görə bu terminin həqiqəti belədir: batini ağıl – istər maddi olsun, istər qeyri maddi – istək və rəğbətləri gerçəkləşdirəndir. İnsanın vəzifəsi isə ona əmrləri və istəkləri göndərməkdir. O hər hansısa bir şeyi

reallaşdırmaq məsuliyyətini daşıyır. Çünki onun sərhədləri və imkanları hər şeyə çatacaq qədər genişdir. O (yəni batini ağıl) hər şeyə qadirdir. Bu (inanc) uca Allaha şərik qoşmaqdır. Halbuki hər şey təkcə uca Allaha məxsusdur, xeyir vermək də, zərər vermək də, əta etmək də, mane olmaq da onun əlindədir. O hər şeyə qadirdir! Uca Allah buyurmuşdur: "Müşriklər Allahı qoyub onlara göylərdə və yerdə olan ruzidən heç bir şey verməyən və buna gücləri çatmayan bütlərə ibadət edirlər". (Nəhl. 73).

**4 – Qədərə imandan uzaqlaşdırmaq**; bu isə birbaşa ruhani ateizm fəlsəfəsinin nəticəsidir. Hansı ki o "vəhdətül-vücud" inancı ətrafında dövr edir. Əgər öz qədərini (yoxdan) yaradan və həyatını yönləndirən sənsənsə, o zaman qədərə iman gətirməyə nə ehtiyac var?! Əslində qədərin mövcud olmasının hansı anlamı var?!

Bu səbəbdən də onların qədərin inkarı ilə bağlı həm eyhamla dedikləri, həm də açıq-aşkar sözləri çoxdur. Onlar aşkarca deyirlər ki, insanın həyatında baş verənlər onun inancının nəticəsidir. Niyyət etdiyi şey mütləq olacaqdır. O zaman deməli (onlara görə) məsələ Allahın istəyi ilə deyil, insanın istəyi ilə bağlıdır və təyin olunmuş qədərin (ixtiyari olmayan taleyin) insanın öz fikrinə görə olacağına inanırlar. Baxmayaraq ki, təyin olunmuş qədər (tale) insanın var olmasından öncə yazılmışdır(11).

Onların məşhur təbliğatçılarından biri belə deyir: "Sənin qədərin (taleyin) öz əlinlə düzəlir, sən qədərini (taleyini)

11 Burada mühüm bir qeyd odur ki, bu sözlərdən insanın ixtiyarında olan qədəri inkar edilmir. Müəllif dəqiq bir ifadə işlədərək "təyin olunmuş qədər (tale)" sözünü işlədir. (Tərcüməçinin qeydi).

düzəldirsən, öz taleyini və başına gələcək olanları sən özün müəyyənləşdirirsən"!

Bir başqası isə belə deyir: "İnsan öz niyyətinin qüvvəti nisbətində kainata təsir edir, istədikləri gerçəkləşir"(12).

Bir üçüncüsü isə niyyət haqqında belə deyir: "O (niyyət) məğlubedilməz varlıq qüvvələrindən biridir"!

Onlardan bəzilərinin öz sözlərini sonlandırması sizdən "Bunların hamısı Allahın istəyi ilədir" cümləsi ilə sonlandırması sizi aldatmasın! Bu söz bu məqamda hiyləli bir söz kimi istifadə olunur. Halbuki onların bu sözü deməsinin nə yeri var, nə də təsiri var. Çünki onlar bu sözün həqiqətinə inansaydılar, bu inanclarını əvvəlindən axırına kimi pozmazdılar. Qədərə iman gətirməklə – Allahın elminə, kainatda baş verəcək hər bir şeyin "Lövhi-Məhfuz"da yazılmasına, Allahın istəyi ilə işlərin gerçəkləşməsinə və Allahın hər şeyi yaratmasına iman gətirmək – insanın öz qədərini yaratması və taleyini təyin etməsi bir arada cəm olmayan iki zidd məfhumdur! Əgər onlardan biri qəlbdə özünə yer edərsə, digərini qəlbdən çıxarar! Enerji fəlsəfəsi isə bu fikirləri birinci yox, ikinci inanc üzərinə qurmuşdur!

**Xülasə:** onlara görə bəndə öz taleyini yaratmaqda təkdir və ya bu işdə öz Rəbbinə şərikdir. Əlbəttə ki, onlar yalan

12 Müəllifin burada tənqid etdiyi məqam insanın sağlam İslam inancına deyil, enerji fəlsəfəsinə bağlanıb, Allaha təvəkkül etmək yerinə yalnız özünə güvənməsi, özünə böyük bir güc nisbət edib insanı Allahdan uzaqlaşdırmaq, insanın özünü Rəbbinə ehtiyacsız hiss etməsini təlqin etmək və s. kimi məsələlərdir. (Tərcüməçinin qeydi).

danışdılar, Allah isə doğru demişdir: "Məgər bilmirsən ki, Allah göydə və yerdə olanları bilir? Həqiqətən də bu, Kitabda (Lövhi-Məhfuzda) mövcuddur. Şübhəsiz ki bu Allah üçün asandır". (əl-Həcc. 70). "Göydə və yerdə elə bir gizli şey yoxdur ki, açıq-aydın Kitabda (Lövhi-Məhfuzda) olmasın". (ən-Nəml. 75). "Aləmlərin Rəbbi olan Allah istəmədikcə, siz istəyə bilməzsiniz". (ət-Təkvir.29).

Onlar yalan danışdılar, Allahın elçisi ﷺ isə doğru demişdir: "Əgər başına bir iş gəlsə, demə ki, əgər mən belə-belə etsəydim, belə-belə olardı. Lakin de: Allah belə istəmişdir (qədərə belə yazmışdır) və onun istədiyi olur". (Səhih Müslim. 2664). O Peyğəmbər ki, belə demişdir: "İstədiyin zaman Allahdan istə, yardım istədikdə Allahdan istə. Bil ki, bütün ümmət sənə fayda vermək üçün toplansalar, onlar yalnız Allahın (qədərinə) yazdığı qədər sənə fayda verə bilərlər. Əgər sənə zərər vermək üçün toplansalar, yalnız Allahın (qədərinə) yazdığı qədər sənə zərər verə bilərlər. Qələmlər qaldırılmış, səhifələr qurumuşdur". (ət-Tirmizi. 2516; Əhməd. 2669).

**5 –** Bu saxta elmlərin pis cəhətlərindən biri də odur ki, bu elmlər **qəlbin Allaha bağlılığını, ona təvəkkülü, onu sevməyi, ona ümid etməyi, ondan qorxmağı zəiflədir**. Hətta ola bilsin ki, qəlbdən Allaha qulluğun həqiqətləri yavaş-yavaş çıxsın. Hətta ola bilsin ki, bu həqiqətlər ondan bütünlüklə getsin. Çünki belə bir insan enerji elmlərinin kölgəsində öz nəfsi ilə kifayətlənib Rəbbinə ehtiyacı olmadığını düşünür – bundan Allaha sığınırıq!

Özlərini ehtiyacsız hiss etmələrini onların bir çoxu dilə gətirmir və etiraf etmir. Öncədən onların sözlərindən verilən bəzi qeydlər barədə düşün.

**6 – Enerji və cazibə qüvvəsi ilə müalicə təbliğatçılarının bir qism azğın əməlləri;** Kainat enerjisini cəlb etmək üçün istifadə edilən bəzi müasir amuletlərin (həmayıl və tilsimlər) tədavülə çıxarılması bura daxildir. Məsələn, hinduizm və buddizmə aid bəzi bahalı daşlar və rəmzlər, hansı ki, onlara görə bu kimi şeylər xoşbəxtlik, sağlamlıq və ruzini cəzb edir! Elə daşlar var ki, (onlara görə) səadəti cəzb edir, elə cismlər var ki, (onlara görə) həyat yoldaşı tapmağı asanlaşdırır, (müxtəlif mədən maddələrindən ibarət) mədən qəpikləri var ki, (onlara görə) varlanmağa səbəb olur. Bilərziklər, seplər və sırğalar var ki, (onlara görə) müsbət enerjini artırır, mənfi enerjini səndən və ətrafındakılardan uzaqlaşdırır!

Bu həmayıllar (amuletlər) bu əsrin şirk üzərində olan əşyalarından sayılır. Peyğəmbər ﷺ buyurmuşdur: "Ovsunlar, həmayıllar və tivələ[13] şirkdir". (İmam Əhməd "Müsnəd" əsərində nəql etmişdir. 3615).

Bunun kimi geniş araşdırmalara ehtiyac duyulan, mələklərə, qeybə, Axirət gününə, ruha iman məsələlərində, səbəblərdən tutunmaqda və bu kimi başqa mövzularda azğınlıqlar çoxdur. Elə bu məqama uyğun olaraq Əbu Tamamın sözü yerinə düşür:

مَسَاوٍ لَوْ قُسِمْنَ على الغَواني

---

13 **"Tivələ"** ərinin sevgisini cəlb etmək üçün qadının etdiyi bir sehr növüdür. Həmçinin deyilib ki, "tivələ" kiminsə məhəbbətinə nail olmaq məqsədilə sehr oxunmuş ip və ya sehr yazılmış kağız parçasıdır". (əd-Dinul-Xalis. 2/238). (Tərcüməçinin qeydi).

لما أَمْهَرْنَ إلاَّ بالطَّلاَقِ

O qədər eybi var ki, düşsə üzü gözəllərə,
Mehir olaraq yetər ki, boşasınlar onları![14]

**Xülasə:** bu fəlsəfəni müxtəsər bir şəkildə belə vəsf edə bilərəm: Saxta bir elmdir, ateistik batini fəlsəfəsini örtür.

Bu fəlsəfə zəlalətlər toplusu və oğurlanmış saxtakarlıqdır.

Bu, əsrimizin qəliblərinə salınmış bütpərəstlik saxtakarlığıdır, qərbin ruhani cildinə bürünmüş ateistik tələsidir, hansı ki, elmlə heç bir əlaqəsinin olmamasına baxmayaraq xəyallardan ibarət olan "elmi" boya ilə boyanmışdır. Bu xəyallarla yalnız insanların pulları oğurlanır.

Onlar bilməyənləri aldadıblar ki, guya bu fəlsəfə həyat və uğur üçün sehirli açarlar təqdim edir. Əslində isə bu inanclar çürük, pis qoxulu inanclardır. Bu inancların qoxusunu alan

---

14 Ərəblər bu misalı, şeir beytini bir şeyin eyiblərinin, pis cəhətlərinin çoxluğuna görə çəkirlər. Yəni bir adamın o qədər çox eyibləri, pis cəhətləri var ki, əgər bu adamda olan pisliklər bəzəyə ehtiyac duymadan üzü və özü gözəl olan, təbii gözəllikləri ilə seçilən qadınlara paylanılarsa, o zaman həmin qadınların hamısının mehri onları sadəcə boşayıb onlardan uzaqlaşmaq olar. Yəni bu qədər pisliklərə düşərlərsə, bəzəyə ehtiyacı olmayan təbii gözəllikləri də onlara fayda verməz. Onlardakı pisliklər görənləri heyrətə salar, onları görən kimsə pis cəhətləri səbəbilə başını götürüb qaçar, onlara mehir əvəzinə boşanma ilə qarşılıq verər. Görün, indi bu pisliklər bir adamda və ya fikir sistemində cəm olarsa, məsələ necə ciddi olar?! Müəllif də bu misalı çəkməklə "enerji fəlsəfəsi"ndə olan pis cəhətlərin, etiqadi çirkabların çoxluğuna eyham vurur və belə bir çirkablarla dolu olan inanc sistemindən sadəcə uzaq durmağı tövsiyə edir! (tərcüməçinin qeydi).

kimsənin bu dünyasını da, axirətini də ziyana salmasından qorxulur. Doğru yola yönəldən Allahdır!

## ALTINCI MƏSƏLƏ:

## ENERJİYƏ AİD EDİLƏN VƏSFLƏR HƏQİQƏTDİRMİ? GÖRƏSƏN, MÜSBƏT ENERJİNİ CƏZB ETMƏK VƏ MƏNFİ ENERJİNİ QOVMAQ MÜMKÜNDÜRMÜ?

Bu kimi şeylər onların qeyd etdikləridir, iddialar etmək asandır. Lakin əsas odur ki, bu qeyd olunanlar doğrudur, ya yox?

Fizika elmində (onların qəsd etdiyi) mənfi və müsbət enerji yoxdur[15].

Onlar bu məsələ üzərində bütün fəlsəfələrini qurub əsaslandırıblar, hansı ki bu bir xəyaldır, həqiqət deyil! Enerji bir mənası olan məfhumdur və belə izah olunur: "müəyyən bir işi yerinə yetirmək iqtidarında olmaq" və ya "işin öhdəsindən gəlmək gücü". Enerji haqqında danışan o kəslər müqayisəsi mümkün olan və varlığı bəlli olan və bilinən enerji – istilik enerjisi, elektrik enerjisi, hərəkət enerjsi – haqqında danışmırlar. Onların danışdığı "enerji" yalnız onların başlarının içində mövcuddur!

Onlar deyirlər: "Sənin cismin titrəyişləri və yüklənmələri cəzb edir!" Onlar bunu haradan götürüblər? Cisim fizika

---

15 Fizika elmində "mənfi" və "müsbət" enerji mövzusu bu fəlsəfədə edilən iddialardan tam uzaq olub elmi bir məsələdir, cismlə bağlı olan elekterik enerjsi, mexaniki enerji, kinetik enerji və s. növləri əhatə edir, Fizikada müsbət enerji bir cismin kinetik və potensial enerjisinin cəmidir. Mənfi enerji anlayışı isə əsasən kvant nəzəriyyəsi və qravitasiya nəzəriyyəsi kimi sahələrdə mühüm rol oynayır. (tərcüməçinin qeydi).

aspektindən yüklənmələrin balanslı olması üzərindədir və cismi cəzb edən enerji yoxdur. Titrəyişlərə gəldikdə isə bunlar hərəkətə meyilli frekanslardır və cismlərdə olan elastiklik (və ya yumşaqlıq) ilə izah edilir, bunlar cəzb etmək xüsusiyyətinə malik deyillər.

Bu tayfa enerjinin mərkəzləşməsini cazibə və sağlamlığın geri qayıtması ilə əlaqələndiriblər. Bu isə elmi hiylədir!

Onlar cazibə qanunu bəhanəsilə bütün dünyanın başını ağrıdıblar; deyirlər ki, insan nəyin barəsində düşünürsə, həmin istədiyi şeyi özünə cəzb edir. Çünki haqqında düşündüyü şeyə fikrini cəmlədiyi zaman enerji formalaşır. Bu enerji onun baş verməsini istədiyi şeyi cəzb edir. Yəni varlığın hissəcikləri insanın enerji hərəkəti barədə düşünməsindən təsirlənir! Deməli, düşüncə reallığı yaradır. Fikrini toplamağın və düşünməyinlə ətrafındakı varlığı dəyişə bilirsən. Yəni əgər sən hansısa bir şeyin sağa tərəf hərəkət etməsi haqqında düşünsən, o şey sağa tərəf hərəkət edəcəkdir. Əgər sən hansısa bir şeyin sola tərəf hərəkət etməsini düşünsən, o şey sola tərəf hərəkət edəcəkdir. Hətta cərrahiyyə əməliyyatları belə yalnız düşüncə vasitəsi ilə həyata keçirilə bilər! Hətta onlardan biri demişdir: "Əgər sən hansısa bir restoranda bir yemək yesən və o yeməyin dadı sənin xoşuna gəlməsə, "cazibə qanunu" vasitəsilə sən o yeməyi bişirən aşbaza təsir edə bilərsən. Ondan sonra yeməyin bişirilməsi yaxşılaşacaqdır. Əgər bəşər övladı cisminin bir quş cismi olduğunu düşünsə, bunu zehinlərində qavrasalar mütləq bir şəkildə uçacaqlar. Lakin bu "uçuş" bu barədə düşünmədən illər sonra baş verəcəkdir.

Bu misallar zarafat və əyləncə üçün deyilməyib! Bu, yayılmış kitablarda yazılmış bir məsələdir. Pulların xərcləndiyi

kurs və mühazirələrdə də deyilmişdir. İndi gördünmü xəyal olan bir şey necə satışa çıxarılır? Bu yolda pul xərcləyən ağıllara təəssüflər olsun!

Təkrar edirəm: Enerji cəzb etmir, frekanslar cəzb etmir. Bu işlə məşğul olanların enerji elmi və cazibə qanunu haqqında dedikləri batildir. Hələ ixtisas əhlinə görə gülməli bir şeydir.

Təəssüf doğuran hal budur ki, onlar bu fikirlərə don geyindirirlər. Məsələn, belə deyirlər: insan cismini əhatə edən elə bir enerji var ki, bu enerjinin həcmi və rəngi insanın psixoloji və fizioloji sağlamlığına müvafiq olaraq dəyişir. Eləcə də bu enerji vasitəsilə insanın gələcəkdə düçar ola biləcəyi xəstəlikləri bilmək mümkündür! Onlar belə deyirlər: "Bu iddia sübut edilib və şəkli də çəkilib!" Reallıq isə fiziklərin bəyan etdiyi kimidir. Şəklinin çəkilməsini iddia etdikləri işıq halqasıdır ki, o da yalnız şəkli çəkilmiş cismi əhatə edən enerji boşlamasıdır. Ərsəyə gələn forma və rəng isə cismin əhatə edilməsi ilə əlaqədar olan xalis fiziki amillərin nəticəsidir. Odur ki, onların bu kimi nəticə ilə oyun oynamaları və hökm vermələri halı baş verə bilir. Deməli, bu tayfa böyük bir azdırma və yalana batıb!

Haqqında danışıb durduqları enerjinin onlara görə həqiqəti şərq dinlərinə mənsub olanların bu haqda inancı kimidir. Belə ki, onlara görə bu fəlsəfə hər şeyin var oluşunun səbəbidir və hər şeyin cövhəridir. Bu yolla yardım diləmək və bu yolla ittihad etməklə (birləşməklə) səadət, hikmət və sağlamlıq gerçəkləşir. Onlar buna ruhi enerji, həyat gücü, şəfa gücü, kainat enerjisi, bəşəri enerji və s. deyirlər, yəni guya hər şeyi idarə edən bu enerjidir! Pak Rəbbimiz (onların dediklərindən) olduqca ucadır!

Bilirsinizmi ki, enerji termininin bu şəxslər tərəfindən istifadə edilməsi məsələdən agah olmayanların yanında onlara müəyyən qədər etibar qazandırır və bu fikrin arxasında gizlənən əqidəni yeritməyi asanlaşdırır?! Onlara görə hər kim ki elmi dildə danışarsa, saxta və ya hiyləli olsa belə - elmi təcrübəsi zəif olan kimsələri inandırmağı bacaracaqdır. Çünki, "enerji" termini təbiət elmləri arasında bilinən elmi terminə bənzəyir. Bu da hazırlıq prossesini keçən şəxslərdə elə təəssürat yaradır ki, guya bu "enerji" mövzusu elmi bir mövzudur. Əksinə, bu şəxslər enerji fəlsəfəsinin əslində saxta olmasını izah edənləri müasir elmləri inkar etməkdə ittiham edirlər!

Onu da qeyd edək ki, o cümlədən də bu şəxslər Şərq dillərinə aid **"Riki"[(16)], "Tsi Konq"[(17)] (Qigong), "Fenşuy"[18], "Tay Şi" (Tai Chi)[19], "Yoqa"[(20)], "Prana Helinq"[(21)]** və s. orijinal terminlərdən heyranlıq yaratmaq üçün istifadə edirlər. Bununla da kimsə elə zənn edə bilər ki, bu terminlərin altında hansısa dəyərli bir elm var. Cahilliklə razılaşmaq asan bir şeydir!

---

16 **Riki:** Yuxarıdakı haşiyələrdən birində mənası izah edildi.

17 **Tsi Konq (Qigong):** Sağlamlığı qorumaq üçün hərəkət, tənəffüs və diqqət çalışmalarını cəm edən qədim bir Çin təlimidir. Ərəbcəsi: تشي كونج (Tərcüməçinin qeydi).

18 Kitabın ilk səhifələrində bu sözün mənası mətndə və qeyddə izah edildi.

19 Qədim Çin döyüş sənəti.

20 Yoqanın İslama zidd mahiyyəti haqqında müəllif kitabçada ətraflı şəkildə izahlar vermişdir.

21 **Prana:** Yoqada, ənənəvi hind tibbində ezoterik – həyati enerji, həyat anlayışı. Yoqada prana, gözlərə görünməməsinə baxmayaraq, bütün kainatı əhatə etdiyinə inanılır.

## YEDDİNCİ MƏSƏLƏ:

## BƏZİ ŞÜBHƏLƏR VƏ ONLARIN CAVABLARI:

**Ola bilsin ki biri belə desin**: Lakin burada bir ehtimal qalır, bəlkə də onların dedikləri sözlər doğrudur! Bu ictihadi (rəylə bağlı) bir məqamdır!

**Cavab belədir**: Biz haqqında dəlil olmayan inkişaf etdirilmiş bir sistemin məlumatı ilə qarşı-qarşıyayıq. Bu məlumatlar sabit elmlə ziddiyyət təşkil edir. O zaman ehtimal haradan gəlir? Allahın dininə müxalif olduğu üçün burada ictihada hansı macal var ki? Əksinə, bu fikirlər dinə qarşıdır! Sən artıq bu fəlsəfədə olan şəriətə müxalifliklər haqqında bir qədər oxudun.

• Ey bu iddiaları edən kəs! Sən necə bildin ki, burada müsbət və mənfi enerji, cazibə və titrəyişlər var? Məgər bunu sənin özün görmüsənmi? Məgər sən elmi şərtlərə uyğun olan bir elmi təcrübə (araşdırma) aparmısanmı? Cavab: qətiyyən yox! O zaman bunu sənə hansısa bir təlimçinin xəbər verməsi və ya kitabında yazması qalır ki, sən də onu təsdiqləmisən! Lap yaxşı, enerjinin qeyd olunan formada varlığı və interaktivliyi (qarşılıqlı təsiri) ya qeybi məsələdir, ya da hissi məsələdir.

• Əgər məsələ qeybi məsələ olarsa, sən bir müsəlmansan və bilirsən ki, qeyb Allaha məxsusdur. Uca Allah buyurmuşdur: "Elə isə de ki qeyb Allaha məxsusdur". (Yunus. 20). Qeybi bilmək yalnız vəhy yoluyla mümkündür. Vəhydə isə bu cür saxtakarlıqlar olmur! Bircə qalır bu fəlsəfənin hissi bir şey olması məsələsi; hissi məsələlər isə ya müşahidə edilir, ya müqayisə edilir və onun varlığı tanınan

elmi meyarlara əsasən bilinir. Onların bu "enerjisi"nin müqayisə olunmasının bir yolu qalmır. O zaman yerdə qalan bu elmin saxta bir elm olmasıdır!

• Buna başqa bir məsələni də əlavə et: öz nəfsinlə heç danışdınmı: nə üçün bu növ enerji elmlərini təsdiqləyən nüfuzlu bir universitet yoxdur? Sizdən başqa ölkəmizdə və ölkə xaricində tanınmış fiziklərdən və Fizika kafedralarından, həkimlərdən və Tibb kafedralarından soruş, qeyd etdiyiniz bu terminlər – enerji, cazibə və titrəyişlər – həqiqətdirmi? Məgər etibarlı həkimlərdən müsbət enerji vasitəsilə müalicənin mümkün olduğunu deyən görmüsünüzmü? Yaxud cərrahiyyə əməliyyatını bu əməllə dəyişən görmüsünüz?! Məgər bu aydın bir işarə deyilmi ki, bu qövmün üzərində olduğu şeyin altında güc yoxdur. Bu, suyun üzərində əkin əkmək kimi bir şeydir, yaxud da ilğımdan(22) ibarət bir içkiyə olan tamahdır!

• Sonra həmçinin buna da diqqət yetir: bu tayfa deyir ki: Artıq istənilən yerdə özünə cəzb etməyin yolunu bilirsən. Fikri niyyətdə cəmləmə yolu ilə sən özünə cəzb edə bilərsən, habelə batini ağlınla hər şeyə nail ola bilərsən!

• Sizə bu batilləri təqdim edənlərə belə bir sual verin: Nə üçün təşkil etdiyiniz kursların və çap etdiyiniz kitabların müqabilində küllü miqdarda pullar əldə edirsiniz? Nə üçün bu işləri pulsuz görmür, öz təməlinizdən və enerjinizdən qazanc gözləntisi kimi istifadə edirsiniz?! Olmazdımı ki, o pulları sadəcə dərin düşüncələrə dalmaqla az sonra özünüzün bank hesablarında tapaydınız?! Məgər bu sizin (təliminizdə) təsdiqlədiyiniz bilginin gərəkli etdiyi həqiqət deyilmi? "Yola çıxmağa ilk razı olan kimsə onu gedəndir"!

---

22 **İlğım**: uzaqdan su kimi görünən, lakin əslində mövcud olmayan bir göz yanılmasıdır.

Nə üçün gənclərin ciblərindən qazanc əldə edirsiniz? Halbuki, siz bu pulları "cazibə qüvvəsi" ilə cəzb edə bilər, yaxud "niyyətlə" əldə edə bilər və ya "enerji" vasitəsilə qazana bilərdiniz?

• Daha mühüm bir məsələ isə budur: Əgər "istəyin gücü", "mənlik gücü", "cazibə" və "qabırğalar arasında gizlənmiş div" ilə hər hansısa bir şeyi cəzb etmək və yaxud hər bir məqsədə çatmaq mümkündürsə, o zaman biz sizin diqqətinizi bəzi şeylərə yönəltmək istəyirik; məlumdur ki, dünyada kasıblar, aclıqlar, müharibələr və zəlzələlər var, həmçinin dünyada infilyasiya, çox sayda iqtisadi, siyasi və ictimai problemlər var, o cümlədən də bir çox kasıb ölkələrin əziyyət çəkdiyi vəbalar və xəstəliklər var. Siz isə mənfi halları yox etmək yolunda enerjidən istifadə etmək və titrəyişləri hərəkətə gətirməkdə ən bacarıqlı kəslər sayılırsınız. Sizlər ki, təlimçilər və bu işlə məşğul olan şəxslərsiniz. O zaman yardımları təqdim etmək və problemləri həll etməkdə sizin yeriniz haradır? Məgər siz kurslar təşkil edib kitablar yazır, lakin dünyamızı bu problemlərin təzyiqi altında inildədiyi bir halda tərkmi edirsiniz? Halbuki, sizin əlinizdə sehirli həll yolları var – necə ki siz bunu deyirsiniz!

Yoxsa insanların sizdən olan nəsibi hiylə və xəyal satışından başqa bir şey deyil?! Siz yalnız faydasız bir şəkildə səs-küy salanlardansınız, fəlsəfəniz isə hiylə və düz ərazidə görünən ilğımdır!

Bu vədiniz elə bir vəddir ki, onu ilğımın parıltısı hesab edərsən, sənə yaxın görünər, başqası üçün isə itən şəfəqdir!

Reallıq budur ki, bu şəxslər zəif damar üzərində

oynamağı yaxşı bacarırlar. Onlar çox yaxşı bilirlər ki, insanlar öz problemlərini və qarşılarındakı maneələri tez və sürətli aradan qaldırmağın yollarını axtarırlar. Bu şəxslər isə insanları öz hiylələrinə çəkir, onların problemlərinin həll yollarının və səadətlərinin barmaqlarından daha yaxın olduğuna və çarənin enerji vasitəsilə cəlb olmasına inandıraraq batil əqidələrini cazibədar göstərirlər. O (aldadılmış) miskin də elə zənn edir ki, öz istədiyinə nail olmaq üçün öz nəfsini çalışdırmağa ehtiyac yoxdur. Yalnız "fikirləş, niyyət et, düşün və arzuladığın şeyi sənə tərəf gələcəkdir"!

Siz heç bunun kimi "illuziya satışı" adlanmağa layiq olan bir şey görmüşdünüzmü?!

O bir ilğım kimidir, ora gələnin susuzluğunu artırar,
Bu susuzluq onun iki göz yuvasının görkəmini doldurar.

Açıq həqiqət belədir: onların bütün müddəalarında yalnız bir növ real cazibədən danışılır; o da avam insanların ciblərində olanları cəzb etməkdir(23).

- **Ola bilsin, kimsə desin:** bu kursların təlimini

---

23 Müəllif deyir: maraqlısı odur ki, onların böyüklərindən biri cazibə qanunu haqqında yazdığı məşhur bir kitabının xatiməsində belə yazmışdı: "Əgər bu nəşri almasan və onu qanunsuz bir yolla əldə etsən və ya internetdən götürsən və ya oğurlanmış nüsxələrdən götürsən və ya bunun kimi işlər görsən, o zaman cazibə qanunu səndə işləməyəcək!" – Bizim haqqımız var ki belə bir sualı soruşaq: Bu istisna nəyə görədir? Məgər sizdə olan enerji və onun cazibəsi məğlub edilməz qalib və müzəffər olub əzilməyən deyilmi?! Bəs bu halda niyə o şikəst olur? Görünür ki cavab belədir: "Bu fəlsəfə ilk öncə onların ciblərinə baxılmazsa çalışmaz".

mütəxəssis doktorlar və öz ixtisasları üzrə ali diplomların daşıyıcıları keçirlər!

**Cavab belədir**: Bu gün həmin formada doktorantura diplomlarını almaq necə də asandır, sosial şəbəkələr bu xəyalları satan adamlarla doludur. Lakin görəsən, bu mötəbər elmi dairələrdə tanınmayan ali diplomların elmi qiyməti nədir?

● **Bunu yadda saxla:** Ərəb dünyasında enerji yalanlarını yayan ən böyük təbliğatçılardan biri özünü "doktor filankəs" kimi təqdim edir. Bildirir ki, o ABŞ-ın filan vilayətinin filan universitetində doktorantura pilləsinə yüksəlib. Lakin həmin universitetin elektron saytına baxdığım zaman gördüm ki, həmin mərkəz bu saxta elmləri tirajlayan adi bir institutdur və bir ildən bir qədər çox vaxt ərzində sadəcə onlarla mesajlaşma yoluyla maqistr və doktorantura diplomlarını verirlər. Lakin bu iddia olunan institut ABŞ-da heç bir rəsmi orqan tərəfindən tanınmır. Elə bu məlumatı onların özləri öz saytlarında da veriblər! Sonra kimsə gəlib saf insanları özünün doktor olması ilə aldadır. Axı nə üçün belə boş işlərlə məşğul olurlar?

Sonra əgər fərz etsək ki, bu saxta fikirləri təqdim edənlərdən kimsə tanınmış universitetlərdən birindən ali bir diplom alıb görəcəksən ki onun diplomu enerjiyə aid deyil, başqa bir ixtisasa aiddir. Çünki bu saxta elmlər üzrə diplom verən hansısa tanınmış bir universitet yoxdur.

● **Ola bilsin, kimsə desin:** Bəzi insanlar enerji ilə məşğul olanların bəzi təcrübələrini sınaqdan keçirib və faydalanıblar.

**Buna cavab olaraq deyilir**: Bu, onların üzərində olduğu fikirlərin doğruluğu haqqında deyilmiş ən uzaq sözlərdir. O baxımdan ki filan kişi yoxlayıb və ya filan qadın yoxlayıb demək, bu cür sözlər doğru bir elmi arqumentasiya deyil. Görəsən, filan kişinin və ya filan qadının bu yolla faydalanmasının dəlili nədir? Ola bilməzmi ki, onlar fikir vermədikləri, diqqət yetirmədikləri başqa bir səbəbdən dolayı faydalansınlar? Nə üçün bu faydalanma iddiası o şəxslərdən eşitdiklərindən dolayı mücərrəd olaraq zənnə qapılmaqdan qaynaqlanmasın? Yaxud da nə üçün bu, səbəbsiz olaraq bir miqdar (tam olmasa da) uyğun gəlmədən dolayı olmasın?

Həqiqət isə budur ki, bunu deyən kimsə "saxta səbəb yanlışı" adlanan məntiqi bir yanlışa yol verib. Bu yanlış yanaşma "birgəlik" və "səbəb" arasında qarışdırma baş verdiyi zaman hasil olur. Ona görə də cahillik və dəqiqləşdirməmə səbəbindən ola bilsin ki, iki məsələ səbəb aspektindən bir-birilə əlaqələndirilsin, halbuki bu əlaqə mövcud deyil.

İki hadisə arasında səbəb əlaqəsinin varlığının isbatı ikisinin bir dəfə və ya bir neçə dəfə birgə baş verməsini daha çox gərəkli edir.

• Bu yanlışa yaxın daha bir yanlış isə "sonrakı yanlış"ıdır. O mənada ki, "bundan sonra baş verdi, deməli onun səbəbilə baş verdi"! Bu iki məsələ arasında bir uyğunluq yoxdur. Heç kəsə gizli deyil ki, sübh xoruzun banlamasından sonra daxil olursa, xoruzun banlaması sübhün vaxtının girməsinin səbəbi deyil. Bu heç kəsə gizli deyil.

Səbəblə bağlılıq daha çox ardıcıl hadisələrin baş verməsini gərəkli edir. Bu səbəbin həqiqətən də təsir etməsinin layiqli bir sübutuna ehtiyacı göstərir. Bunun isə

isbata ehtiyacı yoxdur.

**Xülasə:** Bir çox ortaya çıxan (zahiri) hadisələr var ki, tələskən kimsə o hadisəni səbəb kimi irəli sürür və baş vermiş hadisə ilə səbəbi əlaqələndirir. Reallıq isə onu göstərir ki, bu ikisi arasında bir əlaqə yoxdur.

Sənə bəzi araşdırmaçıların qeyd etdiyi bir misalı çəkəcəyəm; qeyd olunur ki, heç vaxt dəvə görməyən bir kəndin sakinləri arasında ilk dəfə dəvəni gördükdən sonra çiçək xəstəliyi yayılır. Bundan sonra onların nəfsinə elə gəlir ki, dəvəni görmək xəstəliyin səbəbidir! Həmçinin qeyd olunur ki, bir kişi sakinlərin dulusçuluq sənətiylə məşğul olmağa başlayandan sonra vəfat edir. Bundan sonra sakinlərin hamısı bu sənətdən uzaqlaşırlar, çünki onların zənninə görə bu sənət ölümə səbəb olur!

Bu misallar bizə bəzilərindən eşitdiklərimizin mənasını yaxınlaşdırır: guya onlardan bəziləri enerji ayinləri ilə məşğul olub və rahatlıq tapıblar! Yaxud da onlardan biri enerji bilərziyi taxıb və bundan sonra aktiv olub. Yaxud da evin mebelini dəyişib və həyat yoldaşı ilə münasiblətləri qaydasına düşüb. O elə zənn edib ki, evdən mənfi enerji qovulub onun yerinə müsbət enerji gəlib! Bu doğru deyil və bu qeyd olunanlar baş verənlərin səbəbləri deyil. Buna dəlil də yoxdur. Bundan öncə keçdiyi kimi bu tipli hadisələr yalnız – səbəbsiz bir şəkildə - qədərə uyğun gəlib və yaxud da bu hadisələrin onların zənn etdiklərindən başqa həqiqi səbəbləri var.

Sonra mən deyirəm: burada onların qeyd etdiklərindən az bir şeylər var ki, psixoloji rahatlığa və ya başqa faydalara səbəb olur; sakit bir yerdə oturmaq və Allahın yaratmasının gözəlliyi barədə düşüncəyə dalmaq kimi şeyləri misal çəkmək

olar. Hansı ki, bunlar aşkarda olan həqiqi səbəblərdir. Lakin, diqqətli ol! Bu tutunduqları azsaylı şeylərdir, ola bilsin ki bu azsaylı şeylər çoxsaylı azğınlıqlar və batil səbəblərlə qarışdırılsın. Məgər bircə yaxşılığa görə çoxsaylı batillərdən tutunaraq dinimizi həlak etmək əqli cəhətdən doğru olardımı?

Bu şəxslərin halı bir doğrunu yüz və daha çox yalanla qarışdıran falçının halına bənzəyir! Beləcə, bu bircə doğru cahil kimsənin o falçıya bağlanmasının səbəbi olur.

Buxari və Müslimdə Aişənin (Allah ondan razı olsun) hədisindən rəvayət olunur ki: o dedi: Bir qrup insan Allahın elçisindən ﷺ falçılar haqqında soruşdular. Allahın elçisi ﷺ onlara dedi: "Onların sözlərinə etimad olunmur". Dedilər: "Ey Allahın elçisi! Onlar bəzən bəzi şeylər danışırlar doğru çıxır". Allahın elçisi ﷺ dedi: "Bu (doğru çıxan bəzi sözlər) cin tərəfindəndir, cin o sözü qapıb və dostunun (falçının) qulağına toyuq kimi səs çıxararaq deyib təkrarlayar, beləcə o sözə yüz yalan qatarlar"(24). Bu iki hal necə də bir-birinə oxşayır!

[24] Səhih Müslim. 2228; Səhih Buxari. 6213. (Tərcüməçinin qeydi).

## SƏKKİZİNCİ MƏSƏLƏ:

## MÜSƏLMAN ÖLKƏLƏRİNDƏ YAYILMIŞ ENERJİ FƏLSƏFƏSİ İLƏ QƏRBDƏ YAYILMIŞ ENERJİ FƏLSƏFƏSİ ARASINDA FƏRQ VARMI?

• **Ola bilər kimsə desin:** Sizin enerji fəlsəfəsinin pislikləri haqqında qeyd etdikləriniz doğrudur. Lakin bu qeydlər Qərbdə olan fəlsəfəyə aiddir. Müsəlman ölkələrində yayılmış olana gəldikdə isə bu fərqlidir.

**Buna cavabım isə** müxtəsər şəkildə üç aspektdən olacaq:

**Birincisi:** Sizin bu qeyd etdiyiniz haradan götürülüb? Müsəlman ölkələrindəki enerji təbliğatçılarında olan zəlalətlər eynilə Qərbdəki təbliğatçılarla – ayaqqabının bir tayının digər tayına bənzəməsi kimi – eynidir. Onların əsas seçildikləri şeylər enerji saxtakarlıqlarına dini görkəm verməyə çalışmaqlarıdır. Bu bir növ acı dadı örtmək üçün istifadə olunan şirniyyat dadlandırıcı qatqılara bənzəyir! Bunu isə ya şəriət terminlərinin istifadəsi ilə edirlər; niyyət, bərəkət və s. sözlər kimi, hansı ki, özlərinin də bu sözlərlə əlaqəsi yoxdur, ya mötəbər olmayan (dini) dəlillərə əsaslanaraq edirlər. Bu hədis kimi: "Xeyrə yozun, onu taparsınız" – Halbuki, bu hədis Peyğəmbərin ﷺ adından uydurulmuşdur. Yaxud bunu xoşagəlməz yozumlar və ya dəlillərin belini bükməklə və yaxud da dəlilgətirmədə (arqumentasiyada) dəlilləri təhrif etmək yoluyla edirlər; necə ki, onlar - Buxari və Müslimin rəvayət etdiyi – qüdsi bir hədisdə uca Allahın: "Mən bəndəmin Mənim haqqımda olan zənninə görə rəftar edərəm" – sözünün "cazibə qüvvəsi"nə dəlil olduğunu iddia

edirlər. Yəni "zənninə görə qədərini cəzb edirsən" deyiblər. Bu isə - Allaha and olsun ki, ən əcaib, ən qəribə və ən uzaq mənalı dəlilgətirmələrdən biridir. Bu hədis əslində onların özlərinin əleyhinə dəlildir və onların üzərində olduğunun əksinə dəlalət edir. Çünki bu hədisdə Allah haqqında gözəl zənn etməklə ona ümid etmək, onun lütfündən istəməklə tövhidi gerçəkləşdirməyə rəğbətləndirmək var. O təkdir, Onun heç bir şəriki yoxdur; Əgər sən Rəbbinə tam səmimi bir tövbə (tövbeyi-nasuh) edərsənsə və tövbənin qəbul ediləcəyinə ümid bəsləyərsənsə, öz Rəbbinin tövbələri qəbul edən (Tövvab) və rəhimli (Rəhim) olduğunu görərsən. Əgər sən Rəbbinə gözəl bir şəkildə itaət edər və itaətinin qəbul ediləcəyinə ümid bəsləyərsənsə, Rəbbin sənin itaətini qəbul edər. Əgər sən öz Rəbbinə dua edər və duanın qəbul ediləcəyinə ümid bəsləyərsənsə, duana cavab verilər. Əgər sən öz Rəbbinə təvəkkül edər və onun sənə kifayət etdiyinə ümid bəsləyərsənsə, Rəbbin sənə kifayət edər. Amma sən öz Rəbbin haqqında pis zəndə olarsansa, sən bunun qarşılığını görərsən.

Görəsən, - sizin iddianıza görə - bu enerji haqqındakı inancınızda, qəlbi cazibəyə bağlamaqda, bilərziklərin, sırğaların və daşların enerjisinin mənfi enerjini qovması haqqında yaxşı zəndə olmağınızda "Allah haqqında yaxşı zəndə olmaq" haradadır?!

Siz batil əməllərinizi yaxşı əməllərlə müqayisə etməklə, Allah haqqında yaxşı zəndə olmağı sizin amuletləriniz və sehirbazlıqlarınız haqqında yaxşı zəndə olmaqla birmi tutursunuz? Nur zülmətin harasında ola bilər? Tövhid şirkin harasında ola bilər? Haqq batilin harasında ola bilər? Sizə nə olub, necə mühakimə yürüdürsünüz?!

**İkincisi**: Müsəlman ölkələrində bu fəlsəfə və tətbiqatları yayanlar arasında bu fəlsəfədə olan azğınlıqları açıq-aydın inkar edən birini görmədik. Baxmayaraq ki, məqam iman və küfr məqamıdır. Əksinə, biz onlardan yalnız qərbli enerji təbliğatçılarını ucaltmağı, onların kitablarını oxumağa rəğbətləndirməyi, onların tələbəsi olmaqla fəxr etməyi gördük. O cümlədən də müsəlman övladlarının arasında enerji fəlsəfəsinin təbliğatını yayan amillərdən biri də bu təbliğatçıların hindus, ateist "ruhaniləri" və qeyrilərindən ibarət olan beynəlxalq enerji təlimçilərinin tələbələri olmaları və onlardan əldə etdikləri diplom və sertifikatlarla öyünmələri olmuşdur.

**Üçüncüsü:** Hansısa bir fikrə hökm vermək istədikdə onun təməl (əsas) prinsiplərinə bax. Çünki sən tikandan üzüm yığa bilməzsən. Müsəlman ölkələrində yayılan batil fikirlər yalnız orada yayılan fikirlərin bir şaxəsidir (qoludur). Əgər təməl (kök) fəsada uğrayarsa, şaxələr (budaqlar) da fəsada uğrayar. Belə olduğu təqdirdə (bu fikirlərə) İslam donu geyindirməklə edilən gözəllik əməliyyatları uğur qazanmayacaqdır. "Xəbis olan şey yalnız çətinliklə yetişər"[(25)]!

Allahın nemətləri haqqında bir xatırlatma olaraq deyirəm ki, Allahın lütfündəndir ki, bizim ölkəmizdə ölkə başçımızı bu cür saxtakarlıqları qadağan etməyə və tətbiq edilməsinə qarşı şiddətli bir duruşda dayanmağa müvəffəq edib[26]. Hicri təqvimlə 1438-ci ildə (miladi təqvimlə 2017-ci il) ölkəmizdə enerji ilə müalicə və enerji təlimlərini keçməyi qadağan edən rəsmi ali qərar çıxıb! O cümlədən də enerji müalicəsinə və ya

---

25 Müəllif bu cümlə ilə Qurani-Kərimdəki bir ayəyə eyham vurur. Bax: Əraf: 58. (tərcüməçinin qeydi).

26 Söhbət Səudiyyə Ərəbistanından gedir.

onun təliminə aid şeylərin idxalı, ixracı, buna şərait yaradılması, yayılması, bu haqda kitabların təqdimatı və bununla əlaqəli dinlənilən və görülən bütün vasitələr qadağan edilmişdir.

Habelə bu qərar ixtisas əhlindən gəldiyi kimi "lüğəvi-nevroloji proqramlaşdırma"[27] ilə məşğul olmaq da qadağan edilmişdir. Bu da xatırlanası və təşəkkür ediləsi mövzudur.

Bununla yanaşı internet şəbəkəsi açıq bir fəzadır, ora nəzarət etmək çətindir. Buradan da (bu kimi fəlsəfələrdən və s.) çəkinməyin və çəkindirməyin vacibliyi aydın olur.

[27] (NLP) və ya "Neuro-Linguistic Programming" adlanır.

## DOQQUZUNCU MƏSƏLƏ:

## BU SAXTA ELMLƏRİN ƏVƏZLƏYİCİSİ NƏDİR?

**Cavab: Əvəzləyici budur:** Tövhidi həyata keçirmək, uca Allahı rübubiyyətində, üluhiyyətində ism və sifətlərində təkləşdirmək, tək olaraq qəbul etmək.

Uca Allahın bu ayəsini əminliklə oxu: "Ey Peyğəmbər! De: “Göylərin və yerin Rəbbi kimdir?” De: “Allahdır!” De: “Siz Onu qoyub özlərinə nə bir fayda, nə də bir zərər verə bilənlərimi özünüzə dost tutursunuz?!” De: “Heç korla görən eyni ola bilərmi?! Yaxud zülmətlə nur eyni ola bilərmi?!” Yoxsa onlar Allaha, Onun yaratdığı kimi yaradan şəriklər qəbul etdilər və bu yaradılış onlara bənzər göründü?! De: “Hər şeyin xaliqi Allahdır. O, Vahiddir, hər şeyə Qalib gələndir.” (Rad. 16).

**Əvəzləyici budur:** Allahı təzim etmək (uca tutmaq), Allaha bəndə olmaq və Onun Peyğəmbərinə ﷺ tabeçilikdə sadiq olmaq.

**Əvəzləyici budur:** Allah və onun elçisinin sənin üçün hər şeydən daha sevimli olması.

Allaha təvəkküldə sadiq olmaq, yan-yörənə etimad etməkdən (Allahı unutmaqdan) sıyrılmaq, Allaha ümid etmək və ondan qorxmaq.

**Əvəzləyici budur:** Peyğəmbərin ﷺ Səhih Müslimdəki bu sözünə əməl etmək: "Güclü mömin Allah üçün zəif mömindən daha xeyirli və daha sevimlidir. Hər birində də

xeyir var. Sənə faydalı olan işə yönəl, Allahdan kömək istə və aciz olma! Əgər başına bir iş gəlsə "əgər belə-belə etsəydim, belə-belə olardı" - demə. Lakin belə de: "Allahın qədəridir və onun istədiyi olur. Çünki "əgər sözü şeytan əməlinə yol açır"(28). Dərindən düşün!

Bunu özün üçün bir düstur et! Bu hədisdəki hər bir cümlə iddia olunan enerji elminin bir təməlini çökdürür.

**Əvəzləyici budur:** Səbəblərdən tutunmaq, çalışmaq, əməl etmək, tənbəlliyi və arzulara dalmağı tərk etmək.

**Əvəzləyici budur:** Qədərə imanı - Allahın elminə, yazısına, istəyinə və yaratmasına imanı - gerçəkləşdirmək.

**Əvəzləyici budur:** Şəri ruqyə(29) ilə və icazəli terapiyalar vasitəsilə müalicə.

**Əvəzləyici budur:** Öz nəfsinə və elminə etibar etdiyini iddia etsən belə, şər dəvətçilərindən və zənn satanlardan çəkinmək.

Ağıllı kimsə ölümə aparan zəhəri içməz!
Yalnız təcrübədən keçmiş dərmanı seçər!

**Əvəzləyici budur:** Düzgün elmi öz əhlindən götürmək.

---

28 Səhih Müslim. 2664. (Tərcüməçinin qeydi).

29 **Şəri ruqyə**: "Şəri" sözü "şəriət" sözündən olub şəriətə nisbətən deyilir. "Ruqyə" isə: fiziki və mənəvi (ruhi, psixoloji) xəstəliklərdən qorunmaq və ya şəfa tapmaq (müalicə olunmaq) niyyətilə Qurani-Kərim ayələrinin və peyğəmbərdən ﷺ gələn duaların oxunması. (Tərcüməçinin qeydi).

**Əvəzləyici budur:** Anlayışlı və zəkalı olmaq, hər əsən küləyə meyil etməmək.

**Əvəzləyici budur:** Dinimizlə, irsimizlə və dəyərlərimizlə qürur duymaq!

**Əvəzləyici budur:** Allaha boyun əyməkdə, dua və ibadətdə çalışmaq, tövbəyə sadiq olmaq, Ondan istəməkdə ölənə kimi sabit olmaq!

## ONUNCU MƏSƏLƏ:

## QƏLBDƏN OLAN VƏSİYYƏT, ÜMİD EDİRƏM Kİ, QƏLBLƏRƏ ÇATAR

Biz bu əsrdə bənzərsiz bir hal üzərində yaşayırıq! Bu əsrin əsas xüsusiyyəti onun yüksək və əcaib məlumat axını içində olmasıdır. Bu da böyük bir beynəlxalq mədəni qarışıma gətirib çıxardır. Beləcə insan bu reallıq içində qorxunc bir təzyiq altına düşmüş olur. Hətta bu amil bir çoxlarını mədəni fitnəyə, etiqadi problemə və əxlaqi deqradasiyaya gətirib çıxardır.

Allahın düşmənləri isə bu reallıqdan istifadə etməyi yaxşı bacardılar. Onlar mərkəzləşmiş etiqadi müharibə qurdular və bu hücumla hər yerdə olan müsəlman övladlarını hədəf aldılar. ***Onların iki (əsas) qayəsi var:***

**Birincisi:** Bu müsəlmanları dinlərindən çıxarmaq və iman etdikdən sonra onları kafirlərə döndərmək.

**Digəri isə:** Müsəlmanların nəfslərində olan şəri məfhumları dəyişdirmək və Muhəmməd ﷺ peyğəmbərimizin gətirmədiyi yanlış məfhumları İslam adı altında təqdim etmək. Peyğəmbərimiz ﷺ demişdir: "Gecə zülmətinin hissələri kimi olan fitnələr gəlməmişdən öncə əməllər etməyə tələsin. (Həmin zaman gəldikdə) kişi mömin olaraq sabaha çıxar, kafir olaraq gecələyər. Yaxud da mömin olaraq gecələyər, kafir olaraq sabaha çıxar. Dinini dünyadan olan az bir mənfəətə görə satar". (Səhih Müslim)[(30)].

---

30 Səhih Müslim. 118. (Tərcüməçinin qeydi).

Bu, həqiqətən də böyük bir problemdir. Bu problem pis aqibətlərini yaxşılaşdırmaq üçün mübarizə aparılmağa layiqdir və müalicə yolları üçün bütün səylər göstərilməlidir.

Evimizin içində bizimlə müharibə edən fikri-etiqadi cərəyanlardan ibarət olan şiddətli bir sel axını var. Bu axın cəmiyyətin bütün təbəqələrinə - xüsusən də gənclərə, kişilərə və qadınlara - xitab edir. Bu axın geniş yayılmış qatil bir virusa daha çox bənzəyir. Fəzadan (aşağı) enir və ya sosial şəbəkələr vasitəsilə ovlayır və yaxud da kitabların səhifələri vasitəsilə sızır. Bu təhdid indiyə kimi baş vermiş hər hansı bir etiqadi təhdidlərdən həcm və keyfiyyət baxımından fərqlənir. Kim bu axından qorunmazsa, onun zərərə düçar olması yaxın olar!

Bunlar böyük mənəvi sıxıntılara səbəb olan hallar və fırtınalı fitnələrdir ki, təhlükə siqanalının çalınmasını gərəkli edir. Ağıl sahibləri gərək diqqətli olsunlar; Gənc oğlan və qızlar, böyüklər və kiçiklər şər və fəsad dəvətçilərinin, qatı bidət sahiblərinin, ifratçı və azğın fikri cərəyanların oxlarının atış hədəfindədirlər.

Bu qatı etiqadi müharibə bir çox gənc oğlan və qızlar üçün (dini cəhətdən etibarlı) istinad (məlumat) yerinin olmaması ilə paralel bir şəkildə baş verir. Belə bir halda onlardan heç biri bilmir ki, bir şübhəyə düşdükdə və ya bir məsələ ona çətin gəldikdə hansı mənbəyə müraciət etsin?!

Onlardan bir çoxu (dini cəhətdən) etibarlı və qeyri etibarlı istinad (məlumat) yeri arasında fərqi bilmirlər. Bu gün isə hər kəs (dindən) danışır, hər kəs (özündən) qaydalar gətirir, onlara qulaq asanlar da olur.

Elə isə şübhələrdən qətiyyətlə çəkinmək lazımdır; Çünki

bu şübhələr haqqa bənzəyən batillərdir. Başqa bir ifadəylə desək: şübhələr haqq surətində olan batillərdir.

**Şübhələr:** zahiri rəhmət olub batini əzab olan sözlərdir. Sənin mütaliə etdiyin, baxdığın "enerji fəlsəfəsi" əhlinin arqumentasiyaları da buna bir misaldır.

Həqiqətən də şübhələr fitnənin dəhlizi, azğınlığın idarəçisi və hər bir zəlalətə aparan bir liftdir.

Həqiqətən də şübhələr ən böyük təhlükələrdir. Doğrudan da əgər şübhələr qəlbə gələr və qəlbi öz idarəsi altına alarsa, ona etdiyini edər!

Həqiqətən də şübhələr əsrin ölümcül vəbasıdır, hansı ki, çaşqınlıq saçır, sıxıntı yayır və yəqinlik bağlarını qoparır.

**Şübhə:** zəlalət yolunun hiyləgər taciridir. Əgər zəlalət insanlara öz çirkin üzü ilə görünsəydi, o haqq ilə (haqdan bir şey ilə) bəzənib ortaya çıxa bilməzdi. Çünki nəfslər şübhəni qəbul etmir. Bu da sənə şübhənin təhlükəsini göstərir. Zəlalət əhlinin batilə haqq donu geyindirməsi onların insanları əqidələrindən və dinlərindən ayıran ən güclü silahlarıdır. Bir çox insanlar yalnız sözlərə gəldikdə dayanır və o sözlərin bəzəyinə aldanırlar. Onlar sözlərin həqiqətlərinə və mənalarına dərin bir şəkildə baxmırlar. Uca Allah buyurur: "Haqqa batil donu geyindirməyin". (əl-Bəqərə. 42). Elə isə haqqa batil donunun geyindirilməsi şübhələrin gətirilməsinin həqiqətidir.

Sən də şübhə əhlindən şiddətli bir şəkildə həzər et! Peyğəmbərimiz ﷺ "Səhiheyn"də rəvayət edilən hədisdə buyurmuşdur: "Əgər (Quran ayələrindən) bir-birinə

bənzəyən mütəşabeh ayələrə tabe olanları (bununla insanları çaşdıranları) görsəniz, bilin ki, onlar Allahın haqlarında xəbərdarlıq etdiyi kəslərdir. Onlardan həzər edin"[31]. Ey Allahın bəndəsi! Sən də onlardan həzər et!

• Həqiqətən də iman və yəqinlik ən böyük nemətdir. Nemətləri qorumaq isə vacibdir. Şübhələrə qulaq asmamaq və onlardan uzaq durmaq da bu neməti qorumaqdan sayılır. Bil ki, şübhələr yeriyəndir, qəlblər zəifdir. Hər nə ilə oyun oynamaq istəsən də, sən öz dini məsələn ilə oyun oynama!

• Şübhə vəba xəstəliyi kimidir, bu xəstəliklər olan yerlərə yaxınlaşma! Çünki salamatlığı heç nə əvəz etmir!

• Allahın müvəffəqiyyətindən sonra qorunma, əsaslı şəkildə elm öyrənmə və sağlam bir şəkildə etiqadi cəhətdən möhkəmlənmə yolundan başqa bu şübhələrdən çıxış yolu yoxdur. Bu məsələ bu gün son dərəcə mühüm bir ehtiyaca çevrilib və bu mövzuda zəiflik göstərmək qəbuledilməzdir!

Həqiqətən də müvəffəq olmuş xoşbəxt kəslər o kəslərdir ki, onlar haqqı ətraflı bir şəkildə bilir və ona riayət edirlər. Habelə onlar batili də ətraflı şəkildə bilir və ondan uzaq durmağa müvəffəq olurlar.

Amma o kəslər ki, bu həyatda heç nəyi ciddiyə almır, xeyir və şər, iman və küfr, nur və zülmət arasında bir fərq qoymular, onların ziyana düşməsi necə də sürətlə baş verir!

• Bizim və ərafımızdakıların nəfsimizlə mübarizə aparıb

---

31 Səhih Müslim. 2665; Səhih əl-Buxari. 4547. (Tərcüməçinin qeydi).

çatmağımız vacib olan bir hədəfimiz var; o da imanın dadını hiss etməkdir. Çünki bu – Allahın müvəffəqiyyətilə - azğınlıqdan sığortalanmaqdır. Əgər bir kimsə imanın dadını bilər və onun şirinliyini hiss edərsə, onu heç bir şeyə dəyişməz, hətta əvəzində ona bütün dünyanın xəzinələri verilsə belə!

Lakin... Biz bu hala necə çata bilərik?

Buna Peyğəmbərimiz ﷺ "Səhih Müslim" əsərində verilmiş bir hədisində aydınlıq gətirmişdir: "Hər kim ki, Rəbb olaraq Allahdan, din olaraq İslamdan, elçi olaraq Muhəmməddən razı qalarsa, o kimsə imanın ləzzətini dadmış olar"(32). Əhli Sünnənin əqidəsinin qayəsi və xülasəsi bu hədəfə çatmaqdır!

Uca Allaha imanı öyrənmək başlanğıc və sondur. Bu mövzu Allahın varlığının, rübubiyyətinin və üluhiyyətinin dəlillərini və bunun ziddini bilməyi ehtiva edir.

• Uca Allahı onun isim və sifətlərini bilməklə təzim et. O baxımdan ki, uca Allahın Cəlal, Camal və Kamal sifətləri haqqında biliyə yiyələnmək labüddür.

• "İslamın gözəlliklərini" öyrən!; Çünki, kim İslamın gözəlliklərindən, yaxşılıqlarından və yüksəlişindən yəqin olarsa, onu heç bir dinə dəyişməz.

• Nöqsansız və pak olan Allahın felləri barədə qədər, hikmət və səbəb mövzuları haqda doğru etiqadı öyrən. Bu mövzularda baş verən cahillik və qarışıqlıq insanlaradan olan şeytanların daxil olduğu ən böyük qapılardan biridir.

---

32 Səhih Müslim. 1884. (Tərcüməçinin qeydi).

• Şübhələrlə rəftarda ondan uzaq durmaqla və onu aşkar etmək üzrə çalışmaqda doğru metodu öyrən!

• Qəlbinə Quran və Sünnənin dəlillərini təzim etməyi, bu dəlillərə təslimiyyəti və bu dəlilləri hər qaynaqdan önə çəkməyi yerləşdir. Qəlbini bununla doldur!

• Yəqin ol ki, ağılla şəriət arasında görünən ziddiyyət ortadan qalxacaqdır. Ağlın yerinin və özünə layiq vəzifəsinin olduğunu və onun qayəsinin şəriəti özünə tabe etdirmək deyil, özünü şəriətə tabe etdirmək olduğunu bil.

• **Sonda:** Əhli Sünnə vəl-Camaatda olan elmin götürülməsi gərəkən qaynaqlarını və düzgün arqumentasiya metodlarını öyrən.

**Ey Allahım!** Bizi dünya və axirətdə sabit bir sözlə (Lə iləhə illəllahla) sabit et! Bizə çıxmış və çıxacaq olan fitnələrdən salamatlıq ver! Pis nəfslərdən və xəstəliklərdən sənə sığınırıq! Sən duaları Eşidənsən! Allahın qulu və elçisi Muhəmmədə, onun ailəsi və səhabələrinin hamısına Allahın salavatı və salamı olsun.

## KİTABIN İÇİNDƏKİLƏR:

Tərcüməçinin Ön Sözü........................................................3
Müəllifin Ön Sözü..............................................................7
Nə üçün bu mövzudan danışılır?.......................................9
Başlanğıc üçün mühüm müqəddimələr............................11
Enerji Fəlsəfəsi nədir və hansı sahələri əhatə edir?...........14
Enerji Fəlsəfəsi ilə məşğul olanaların təbliğat vasitələri nələrdir?.................................................................................16
Enerji Fəlsəfəsində şəriətə müxalif olan şeylər nələrdir?.....17
1 – İnsanın ilahiləşdirilməsi..............................................18
2 – "hülul", "ittihad" və "vəhdətül-vücud" inancları............20
3 – Rübubiyyətdə və üluhiyyətdə böyük şirk.....................23
4 – Qədərə imanı uzaqlaşdırmaq.....................................24
5 – Qəlbin Allaha bağlılığını zəiflətmək.............................25
6 – Daşların, bilərziklərin, boyunbağıların və s. müxtəlif cismlərin xeyir və şər, müsbət və mənfi təsirinə inam........27
Enerjiyə aid edilən vəsflər həqiqətdirmi? Görəsən, müsbət enerjini cəzb etmək və mənfi enerjini qovmaq mümkündürmü?..............................................................30
Bəzi şübhələr və onların cavabları...................................35
Müsəlman ölkələrində yayılmış enerji fəlsəfəsi ilə Qərbdə yayılmış enerji fəlsəfəsi arasında fərq varmı?.....................43
Bu saxta elmlərin əvəzləyicisi nədir?................................47
Qəlbdən olan vəsiyyət, ümid edirəm ki, qəlblərə çatar.......50
Kitabın içindəkilər............................................................56

## QEYDLƏR:

## QEYDLƏR:

## QEYDLƏR:

**Qeyd:** Hörmətli oxucular! Şəkk yoxdur ki, əlinizdəki kitabça insan əməyinin bəhrəsidir. Ona görə də kitabçada səhvlərin olması qaçınılmazdır. Xahiş edirik ki, kitabça haqqında hər hansısa bir mülahizə, rəy və təkliflərinizi bu elektron ünvana göndərəsiniz.
Sahibfarmanoglu@gmail.com

**Kitabçanın adı:** "Enerji Fəlsəfəsi, Həqiqət, Yoxsa Xəyal?"
**Kitabçanın təsnifatı:** Dini təyinatlı.
**İxtisas redaktoru:** Qabil Şükürov.
**Digər redaktorlar:** Malik Əlisoy, Telmar Namazov
**Korrektə:** Ülkər Qurbanova.
**Redaktədən sonrakı tarix:** 14/11/2025.
**Kitabçanın səhifələrinin sayı:** 60.
**Kağız ölçüsü:** A5 . 14.8 × 21.
**Müəllif:** Saleh İbn Əbdüləziz Osman Sindi.
**Tərcüməçi:** Sahib Fəriman oğlu Əsədov

# فلسفة الطاقة

Hörmətli oxucu! Tərcümə etdiyimiz, haqqında danışılan "Enerji fəlsəfəsi"nin təbliğinin ölkəmizdə də sürətlə yayılmağa başlaması, bu mövzuya islami mövqeyin ortaya qoyulmasını qaçılmaz etmişdir.

"Yoqa", "Fenşuy" və digər bəzi enerji ilə əlaqədar olan Şərq mənşəli təlimlər də bu məfhuma daxildir. Kitabda bu fəlsəfi cərəyanda olan İslama zidd inanclara, fikirlərə və feillərə ayrı-ayrı toxunulmuşdur.

Bu sahə təkcə adi bir fəlsəfə olsaydı, bəlkə də bu mövzu haqqında bu qədər ciddi bir yanaşma sərgilənməsinə o qədər də ehtiyac olmazdı. Lakin "Enerji fəlsəfəsi" özündə İslama zidd çox təhlükəli inancları daşıdığı üçün bu kitabçanın oxuculara təqdim edilməsi bir zərurətə çevrilmişdir.

*Sahib Əsədov*

İSLAMIN
MÜDAFİƏSİ